QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 175 (5647) **18 sentyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm parad keçirilib

Səh 3



## *İlham Əliyev: "Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik"*

11

**Azərbaycan Prezidentinin Mətbuat katibi Ermənistan baş nazirinin cəfəng bəyanatını şərh edib**



11

**Ermənistan Müdafiə Nazirliyi Nikol Paşinyanı ələ salır**



14

**Əli Kərimli-İlqar Məmmədov qarşıdurması**



# Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir

***Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın sentyabrın 15-də rəsmi qarşılanma mərasimi olub. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı. Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Rəcəb Tayyib Ərdoğana, Türkiyə Respublikasının nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.***



Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, ölkələrimizin birgə həyata keçirdiyi qlobal layihələrin əhəmiyyəti qeyd olundu. Türkiyə Prezidentinin səfərinin əməkdaşlığın genişləndirilməsinə töhfə verdiyi qeyd edildi. Bakının işğaldan azad olunmasının 100 illiyi münasibətilə paytaxtda keçirilən paradın əlaqələrimizin tarixində mühüm hadisə olduğu vurğulandı. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 15-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər. AZƏRTAC xəbər verir ki, dövlət başçıları Ulu Öndərin məzarı önünə əklillər qoyublar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 15-də Şəhidlər xiyabanını ziyarət ediblər.











AZƏRTAC xəbər verir ki, burada dövlət başçılarının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə əklillər qoydular. Dövlət başçıları Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr etdilər. Sonra Azərbaycan və Türkiyə prezidentləri Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklillər qoydular. Dövlət başçıları Xatirə kitabına ürək sözlərini yazdılar.

# Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm parad keçirilib

## *İlham Əliyev: "Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik"*

***Sentyabrın 15-də Azərbaycan paytaxtının Azadlıq meydanında Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva paradda iştirak ediblər.***



Azərbaycan Respublikasının paytaxtı Bakı öz tarixinin ən əlamətdar günlərindən birini yaşayıb. Düz 100 il əvvəl - 1918-ci il sentyabrın 15-də Bakı tarixində ilk dəfə Azərbaycanın paytaxtı statusunu alaraq Qafqaz İslam Ordusu və Azərbaycan milli ordu birləşmələrinin zəfərini bayram edirdi. Həmin gün yenidən təkrarlanıb. Qardaşlığın, sədaqətin rəmzinə çevrilən bu zəfər bayramı ümummilli liderimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının fəlsəfəsini yetərincə əks etdirir və Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının sarsılmaz, həm də əbədi olduğunu göstərir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan və Türkiyə prezidentlərinə raport verib. Sonra sözləri görkəmli Azərbaycan şairi Əhməd Cavada, musiqisi dahi bəstəkar Üzeyir Hacıbəyliyə məxsus "Çırpınırdın Qara dəniz" mahnısı səsləndirilib. Daha sonra ölməz sənətkar Müslüm Maqomayevin ifasında məşhur "Azərbaycan" mahnısının sədaları "Azadlıq" meydanına yayılıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış edib.

Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi və Nuru paşanın rəhbərliyi altında Gəncədən Bakıya gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi tarixi hadisə idi. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaq: "Bu bayram günündə biz birlikdəyik. Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik. Yüz il bundan əvvəl Nuru paşanın komandanlığı altında yeni yaradılmış Azərbaycan Milli Ordusu könüllülərlə birlikdə Bakını işğalçılardan azad etdi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan və Türkiyə vətəndaşlarını ürəkdən təbrik etmək istəyirəm. Azərbaycanın rəmzlərindən biri olan Azadlıq meydanından bütün türk bacı-qardaşlarımıza səmimi salamlarımı, sevgimi, məhəbbətimi çatdırıram.

Biz bu gün əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla şəhidlərimizin məzarlarını ziyarət etdik. Onların məzarları yan-yanadır. Onlara Allahdan rəhmət dilədik, onların xatirəsi bizim qəlbimizdədir və onların göstərdikləri qəhrəmanlıq bu gün Türkiyə və Azərbaycan birliyini daha da möhkəmləndirir.

> ***"Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun"***

***Ardı Səh. 4***







# Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm parad keçirilib

## *İlham Əliyev: "Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik"*

Əvvəli Səh. 3

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Əfsuslar olsun ki, iki ildən sonra Cümhuriyyət süqut etdi, Azərbaycan öz dövlət müstəqilliyini itirdi. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etmişdir və bizi ilk tanıyan Türkiyə olmuşdur. Bu da bir qardaşlıq nümunəsi idi.

Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun. Bizim birliyimiz bütün sahələrdə özünü büruzə verir. Təkcə bu il Prezident Rəcəb Tayyib Ərdoğanla mənim altı görüşüm olmuşdur - ikisi Azərbaycanda, ikisi Türkiyədə, ikisi isə beynəlxalq tədbirlər çərçivəsində. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir və hər görüşün böyük əhəmiyyəti var. Siyasi əlaqələr bu gün ən yüksək zirvədədir. Biz uğurlu iqtisadi əməkdaşlıq edirik. Ticarət dövriyyəsi artır. Azərbaycandan Türkiyəyə, Türkiyədən Azərbaycana milyardlarla dollar həcmində sərmayə qoyulur. Biz birgə enerji-nəqliyyat layihələrini uğurla icra edirik. O layihələr ki, Avrasiyanın enerji və nəqliyyat xəritəsini yaradır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, TANAP layihəsinin bu il istifadəyə verilməsi tarixi layihələrdir. Birgə siyasi iradə ortaya qoyulmuşdur. Birgə maliyyə resursları təşkil edilmişdir və bu nəhəng transmilli layihələr uğurla icra edilmişdir. Biz Avrasiyanın nəqliyyat xəritəsini yenidən yaradırıq. Keçən ilin oktyabrında əziz qardaşımın iştirakı ilə Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı mərasimi keçirilmişdir. Bu dəmir yolu yeni nəqliyyat damarıdır. Bu dəmir yolu ilə daşınan yüklərin həcmi getdikcə artır və artacaq. Bizim ölkələrimizin əhəmiyyəti, önəmi artır. Bütün bu böyük layihələri ancaq biz birlikdə edə bilərdik və etdik. Nəzərə alsaq ki, bu layihələr böyük maliyyə resursları, böyük siyasi iradə tələb edir, ancaq birgə səylərimizlə biz buna nail ola bilmişik. Bu gün Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bu layihələrin bəhrəsini görür. Bizim birliyimiz hər bir sahədə özünü göstərir, o cümlədən hərbi sahədə bizim iş birliyimiz, əməkdaşlığımız dərinləşir. İl ərzində bir neçə dəfə müştərək hərbi təlimlər keçirilir. Bu gün Türkiyə və Azərbaycan ordularının əsgərləri Azadlıq meydanında yan-yana dayanıblar və onlar bizim önümüzdən qardaş kimi keçəcəklər.



> **"Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir"**






Türkiyə son illər ərzində çox böyük və şərəfli yol keçmişdir. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə dünya miqyasında böyük gücə çevrilibdir. Türkiyənin iştirakı olmadan dünyada heç bir məsələ həll oluna bilməz. Yaşadığımız bölgənin tarixi və bu günü bunu əyani şəkildə göstərir. Türkiyənin siyasi imkanları genişlənir, dünyadakı oynadığı rol artır və bu, bizi çox sevindirir. Türkiyə nə qədər güclü olarsa, Azərbaycan da bir o qədər güclü olacaqdır. Türkiyə böyük iqtisadi gücə sahib bir ölkədir. Təsadüfi deyil ki, Türkiyə iqtisadiyyatına milyardlarla dollar xarici sərmayə qoyulur. Təkcə Azərbaycanın Türkiyəyə qoyduğu və qoyacağı sərmayə 20 milyard dollara bərabərdir. Türkiyənin dünya miqyasında çox güclü ordusu var. O dünya miqyasında ən güclü ordulardan biridir və həm Türkiyə, həm də bizim üçün bu, qürur mənbəyidir. Bütün bu uğurlar yalnız güclü liderin yorulmaz fəaliyyəti və xalqın Rəcəb Tayyib Ərdoğana olan dəstəyi nəticəsində mümkün olmuşdur. Bu gün mən Azadlıq meydanından bütün bu uğurlar münasibətilə Türkiyə Cümhuriyyətinin Prezidentini və bütün türk xalqını ürəkdən təbrik etmək istərdim.

Gələn ay Azərbaycan dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd edəcək. Tarix üçün bu, çox qısa bir vaxtdır. Müstəqilliyimizin ilk iki ili çox ağır, faciəvi keçmişdir, torpaqlarımız işğal altına düşmüşdür, Azərbaycan böyük iqtisadi çətinliklərlə, iqtisadi-siyasi böhranla üzləşmişdir. Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Nəzərə alsaq ki, birinci iki ilimiz çox ağır keçmişdir, sonrakı dövrdə Azərbaycan böyük uğurlara imza atdı. Bu gün Azərbaycan bölgədə önəmli ölkəyə çevrilib, dünyadakı rolumuz artır, bizim beynəlxalq mövqelərimiz möhkəmlənir, dünya ictimaiyyəti bizim siyasətimizi dəstəkləyir. Bunun ən bariz nümunəsi odur ki, bir neçə il bundan əvvəl dünyanın 155 ölkəsi Azərbaycanı BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçmişdir. Bu, dünyanın Azərbaycana olan dəstəyinin təzahürüdür. İqtisadi sahədə aparılan islahatlar Azərbaycana böyük imkanlar gətirdi, biz böyük nailiyyətlərə çata bildik. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmışdır. Ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulmuşdur. Sosial məsələlərin həlli işində böyük uğurlar əldə edilmişdir. Bu gün Azərbaycanda işsizlik 5 faiz səviyyəsindədir. Azərbaycan dost ölkələrlə, ilk növbədə, Türkiyə ilə birlikdə böyük layihələr icra etdi. Yəni, bütün bunlar tam əminliklə deməyə əsas verir ki, Azərbaycanın gələcəyi də parlaq olacaq."

**Ardı Səh. 5**

# Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm parad keçirilib

*İlham Əliyev: "Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik"*

Əvvəli Səh. 4

Dövlət başçısı diqqətə çatdırıb ki, ölkəmiz ordu quruculuğu sahəsində də böyük uğurlar əldə edib. Bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu sırasındadır: "Bizim hərbi potensialımız artır. Bizim güclü ordumuza böyük ehtiyacımız var. Çünki torpaqlarımız işğal altındadır.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb. Mənfur qonşular 1990-cı illərin əvvəllərində Azərbaycandakı qeyri-sabit vəziyyətdən istifadə edərək torpaqlarımızın bir hissəsini işğal edib. İşğal edilmiş torpaqlarda bütün tarixi, dini abidələrimiz ermənilər tərəfindən vəhşicəsində məhv edilib. Xalqımıza qarşı soyqırımı törədilib və bu işğal bu gün də davam edir. Ona görə güclü ordu Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşaması, ərazi bütövlüyünün bərpası üçün əsas şərtdir.



Əziz dostlar, bu gün, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir.

Yüz il bundan əvvəl Nuru paşanın Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun birgə əməliyyatı nəticəsində Bakı işğalçılardan azad edildi. Bir gündən çox davam edən şiddətli döyüşlərdə bizim əcdadlarımız əsl qəhrəmanlıq, şücaət göstərmişlər. Onu da qeyd etməliyəm ki, bu tarixi zəfərdən iki gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya gəlmiş və Bakı Azərbaycan dövlətinin paytaxtı elan edilmişdir. Bizim qədim şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz əsl sahibinə qayıtmışdır. Nuru paşanın, Qafqaz İslam Ordusunun, bütün qardaşlarımızın qəhrəmanlığı, dostluğu, qardaşlığı unudulmazdır, əbədidir, bizim qəlbimizdə daim yaşayacaqdır."

***"Azərbaycanın sevinci, bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik"***






Azərbaycan Ordusu döyüş meydanında öz gücünü, məharətini göstərmişdir. Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır.



x x x

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Prezident Rəcəb Tayyib Ərdoğan öz çıxışında bildirib ki, Türkiyə Azərbaycan uğrunda 1132 şəhid verib. Azərbaycan Türkiyədən sonra ən çox şəhidimizin olduğu ölkədir:

"Buradakı məzarlarda yanaşı uyuyan şəhidlərimiz, eyni zamanda, ölkələrimiz arasındakı birgə taleyin təmsilçiləridir. Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir. Böyük şair, mərhum Bəxtiyar Vahabzadə bu birliyimizi belə gözəl ifadə edib:

Ardı Səh. 6

# Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm parad keçirilib

*İlham Əliyev: "Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik"*



Əvvəli Səh. 5

Bir ananın iki oğlu,
Bir amalın iki qolu.
O da ulu, bu da ulu,
Azərbaycan-Türkiyə.
Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir,
Azərbaycan-Türkiyə.
Birdir bizim hər halımız,
Sevincimiz-məlalımız.
Bayraqlarda hilalımız,
Azərbaycan-Türkiyə.
Ana yurdda yuva qurdum,
Ata yurda könül verdim.
Ana yurdum, ata yurdum,
Azərbaycan-Türkiyə.

Bəli, Türkiyə və Azərbaycanın birliyi bu misralarda təcəssüm edən qardaşlığın ən gözəl nümunəsidir.

Biz bu gün burada yalnız Qafqaz İslam Ordusunun və azərbaycanlı qardaşlarımızın dillərdə dastan olan mübarizəsi ilə Bakının işğaldan azad olunmasının 100-cü ildönümünü qeyd etmirik, eyni zamanda, əziz şəhidlərimizin bizə əmanəti olan "Bir millət, iki dövlət" deyə rəmzləşdirdiyimiz qan qardaşlığımızı da dərk edirik.

Dəyərli qardaşlarım, burada bir həqiqəti dərhal vurğulamaq istəyirəm. 1918-ci il sentyabrın 15-də hazırda yaşadığımız ərazilərdə baş verən müharibə, əslə, adi bir hadisə deyil. Bir əsr əvvəl burada aparılan mübarizə bizim qardaşlığımızın, dostluğumuzun, birlik və bərabərliyimizin də rəmzidir. Tarixi bilmədən, bir əsr əvvəl Nuru paşanın və əsgərlərinin minlərlə kilometr uzaqdan Bakıya və Gəncəyə gəlmələrinin səbəblərini dərk etmədən Azadlıq meydanındakı bu həmrəylik mənzərəsinin mənasını anlaya bilmərik. Bundan bir əsr əvvəl qardaşlarımızın işğal altında çəkdiyi zülm elə bir həddə çatmışdı ki, Nuru paşa Gəncəyə gələndə azərbaycanlı uşaqlar hamısı bir ağızdan məmnunluqlarını belə ifadə etmişdilər:

Qatar gəlib yan verir,
Gəncəliyə şan verir.
Gəncənin cavanları,
"Bakı!" deyə can verir.

Azərbaycanın məşhur "Lalələr" mahnısının kədərli hekayəsi də eyni şəkildə çəkilən əzabların və Qafqaz İslam Ordusunun qəlblərdə yaratdığı sevinc hissinin ifadəsidir.

Gəncə bölgəsinə hərəkət edən minlərlə əsgər başlarındakı qırmızı fəsləri və qotazları ilə uzaqdan gəlincik çəmənzarına bənzər bir mənzərə yaradırdılar. Gəlincik Azərbaycan dilində lalə deməkdir. Bəstəkar Telman Hacıyevin lalə ilə bağlı mahnısında şair hisslərini bu cür ifadə edib:

Yazın əvvəlində Gəncə çölündə,
Çıxıblar yenə də dizə lalələr.
Yağışdan islanan yarpaqlarını,
Səriblər dərəyə, düzə lalələr.
Meylim üzündəki qara xaldadır,
Hicranın əlacı ilk vüsaldadır.
Nə vaxtdır aşiqin gözü yoldadır,
Bir qonaq gələsiz bizə lalələr.

Nuru paşanın və Qafqaz İslam Ordusunun Bakıya və Gəncəyə gəlişi azərbaycanlı qardaşlarımız arasında belə böyük həyəcana, belə böyük bir ümidə səbəb olub.

Dəyərli qardaşlarım, bu gün 1918-ci il sentyabrın 15-də qazanılmış böyük qələbəni kiçik, əhəmiyyətsiz göstərməyə çalışan bəzi qüvvələrin olduğunu bilirik. Buna təşəbbüs göstərənlər o dövrdə aldıqları ağır məğlubiyyətin rüsvayçılığını hələ də unuda bilməyənlərdir. Osmanlı dövlətinin imzaladığı Mudros atəşkəs müqaviləsi təəssüf ki, bu dairələrə fürsət verib və Qafqaz İslam Ordusunun bu torpaqlardan çəkilməsinə yol açıb. Bundan daha da ağrılısı odur ki, həmin dövrdə eyni dairələr Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoymaq üçün böyük səy göstəriblər. Təəssüf ki, müstəqilliyinin bərpasından 22 ay sonra bu məsələdə uğur qazanıblar.

Qafqaz İslam Ordusunun və Azərbaycan Ordusunun 1918-ci ildə burada həyata keçirdikləri əməliyyatlar o dövrdə Azərbaycanın ərazi bütövlüyünü təmin edərək bugünkü müstəqilliyinin təməlini qoyub.

Azərbaycanın 1991-ci ildə müstəqilliyini yenidən bərpa etməsindən sonra onu ilk tanıyan ölkənin Türkiyə Respublikası olması heç də təsadüfi deyil. Bu, qan qardaşlığımızın təbii nəticəsidir. Türkiyə olaraq müstəqilliyinin ilk dövrlərindən başlayaraq Azərbaycana əlimizdən gələn hər cür dəstəyi göstərdik və göstərməyə davam edəcəyik.

Bu gün Türkiyə Azərbaycanın sadəcə siyasi və hərbi deyil, eyni zamanda, ticarət, iqtisadiyyat, mədəniyyət və digər bütün sahələrdə ən mühüm tərəfdaşıdır. Müstəqilliyini bərpa etdikdən bəri Türkiyədə təhsil almış azərbaycanlıların sayı 125 mindən çoxdur. Hazırda 15 mindən çox azərbaycanlı tələbə Türkiyə universitetlərində təhsil alır. Əsgərlərimiz birgə təlimlər keçir, Əfqanıstan kimi dünyanın müxtəlif bölgələrində birlikdə fəaliyyət göstərirlər. Şübhəsiz ki, bu uğurlarda ümummilli lider Heydər Əliyevin nümayiş etdirdiyi dəyanətli liderliklə yanaşı, əziz qardaşım İlham Əliyevin səylərinin çox böyük bir payı vardır.

Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı -Tbilisi-Qars dəmir yolu, TANAP kimi birgə həyata keçirdiyimiz layihələr bütün regiona töhfəsini verir. Türkiyə Azərbaycanda ən böyük sərmayədarlardan biridir. İnşallah, Azərbaycan da çox yaxın zamanlarda Türkiyədə eyni mövqeyə malik olacaq. Digər tərəfdən, bütün bu nailiyyətlərlə bərabər, gördüyümüz işlərlə heç vaxt kifayətlənməmişik və kifayətlənməyəcəyik. Gələcəkdə bizi daha böyük vəzifələr gözləyir. Biz aramızdakı əlaqələri daha da sağlamlaşdıraraq, gələcək nəsillərə güclü bir miras qoymalıyıq. Biz minlərlə şəhidimizin qanı ilə yoğrulan bu dostluğu daimi edəcək layihələri həyata keçirərək "Bir millət, iki dövlət" şüarımıza uyğun şəkildə hər sahədə əməkdaşlığımızı dərinləşdirməliyik.

Hörmətli Prezident, dəyərli dostlarım, Azərbaycanın sevinci, bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik. Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi bizim üçün də eyni dərəcədə ağrılı problemdir. Türkiyə olaraq problemin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəyik. İllərdir vətən həsrəti ilə ömür sürən bir milyondan çox qardaşımızın intizarına artıq son qoymaq vaxtıdır. Qardaş Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayanların, bir milyondan çox qardaşımızın öz vətəninə qayıtmasına mane olanların bizdən sərhədlərimizi açmağımızı gözləmələri əbəsdir. Türkiyənin bu məsələdə mövqeyi məlumdur, aydındır, dəqiqdir. Əvvəla, bu məsələdə addım atmalı olan tərəf işğalçılardır, bir milyon qardaşımızın qəlbini doğma vətən həsrəti ilə yandıranlardır. Əlbəttə, biz bütün qonşularımızla yaxşı əlaqələr qurmağı və davam etdirməyi arzu edirik. Amma Dağlıq Qarabağ probleminin həlli Ermənistanla əlaqələrimizin bərpasının ən vacib şərtidir. Bunu hamı bilməlidir. Bundan 26 il əvvəl Xocalıda, Dağlıq Qarabağda törədilmiş qətliamlara görə məsuliyyət daşıyanların, qatilləri qəhrəman elan edənlərin bizə verə biləcəyi heç bir tarixi dərs yoxdur. Türkiyə əsgərləri bu gün burada Azərbaycan əsgərləri ilə çiyin-çiyinə bundan 100 il əvvəl birlikdə qazanılan böyük qələbənin ildönümünü qeyd edirlər. Bu bayram gələcək nəsillərə ötürəcəyimiz ən böyük ərməğandır. Bir əsr əvvəl bu torpaqlarda minlərlə şəhidimizin qanı ilə yazılan dastanın unudulmasına və unutdurulmasına qətiyyən imkan verməyəcəyik."

x x x

Dövlət başçılarının çıxışlarından sonra Bakı Qarnizonunun şəxsi heyətinin təntənəli keçidi başlanıb.

Yüzlərlə hərbi texnikanın, uçuş vasitələrinin, zirehli texnikaların, raket və artilleriya silahlarının, hava hücumundan müdafiə sistemlərinin, helikopterlərin, pilotsuz uçuş aparatlarının, digər silah və texnikanın nümayiş olunduğu bu parad bir daha göstərdi ki, son illərdə ordumuz əhəmiyyətli dərəcədə güclənib. Güclü iqtisadiyyata söykənən güclü ordu formulu Prezident İlham Əliyevin fəaliyyətinin əsas qayələrindən birinə çevrilib. Ölkəmizin iqtisadi inkişaf tempi Silahlı Qüvvələrin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biri olub.

# Azərbaycan və Türkiyə prezidentləri parad iştirakçıları ilə xatirə şəkilləri çəkdiriblər





**Sentyabrın 15-də Bakının azad olunmasının 100 illiyi ilə bağlı keçirilən təntənəli paraddan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Qız qalasının qarşısına gəliblər. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Qız qalasının qarşısında paradda iştirak edən əsgərlərlə görüşüblər, onlarla xatirə şəkilləri çəkdiriblər.**

Burada əllərində Azərbaycanın və Türkiyənin dövlət bayraqlarını tutmuş Bakı sakinləri və şəhərimizin qonaqları Prezident İlham Əliyevi və Prezident Rəcəb Tayyib Ərdoğanı böyük coşqu ilə qarşılayıblar. Dövlət başçıları paytaxt sakinləri ilə xatirə şəkilləri çəkdiriblər. Daha sonra Azərbaycan və Türkiyə prezidentləri Bakı bulvarını gəziblər.





# Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi olub

## Prezident, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak edib

***Sentyabrın 16-da Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.***

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydular.

Hərbi hissənin komandiri andiçmə mərasiminə hazırlıq barədə Ali Baş Komandana məruzə etdi. Prezident İlham Əliyev şəxsi heyəti salamladı. Sonra döyüş bayrağı hərbi marşın sədaları altında sıra meydanına gətirildi. Bunun ardınca Vətən uğrunda həlak olan hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, dövlət himni səsləndi. Daha sonra gənc əsgərlər and içdilər.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində keçirilən mərasimdə and içən gənc əsgərlər sırasında Azərbaycan Prezidentinin oğlu, burada











# Dövlət Təhlükəsizliyi Xidmətinin gənc əsgərlərinin andiçmə mərasimi olub

## Prezident, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak edib





hərbi xidmət keçən Heydər Əliyev də var.

Prezident, Ali Baş Komandan İlham Əliyev şəxsi heyəti təbrik edərək dedi: “Əziz əsgərlər, sizi hərbi and içməyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram.” Hərbi hissənin şəxsi heyəti təntənəli marşla tribunanın qarşısından keçdi. Gənc əsgərlərin andiçmə mərasimində iştirak edən valideynlər Prezident İlham Əliyevlə görüşüb söhbət etdilər. Sonda xatirə şəkilləri çəkdirildi.

# Çin-Azərbaycan əlaqələri çox uğurla inkişaf edir

## Prezident İlham Əliyev Çinin Sinxua xəbər agentliyinin baş redaktorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Çin Xalq Respublikasının Sinxua xəbər agentliyinin nazir statusunda baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Çinin Sinxua xəbər agentliyinin Azərbaycan Dövlət İnformasiya Agentliyi ilə yaxşı əməkdaşlıq etməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı Sinxua xəbər agentliyinin baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərindən sonra bu əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini ifadə etdi. Çin-Azərbaycan əlaqələrinin çox uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev Çin Xalq Respublikasına rəsmi səfərini məmnunluqla xatırlayaraq həmin səfərin çox yaxşı nəticələr verdiyini vurğuladı. İki ölkə arasında ticarət əlaqələrinin inkişafı üçün çox yaxşı imkanların olduğunu qeyd edən dövlətimizin başçısı qarşılıqlı ixracın artırılması üçün əməli işlərin aparıldığını dedi. Turizm sahəsində də əməkdaşlıq üçün böyük potensialın mövcud olduğunu bildirən Prezident İlham Əliyev dedi ki, Çin vətəndaşları Azərbaycana elektron viza vasitəsilə rahat gələ bilərlər. Dövlətimizin başçısı turizmin inkişafında xəbər agentliklərinin və mətbuatın böyük rolunu qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin, eyni zamanda, nəqliyyat sahəsində uğurlu əməkdaşlıq etdiyini, Çindən Azərbaycan ərazisindən dünya bazarlarına çıxarılan məhsulların sayının və həcminin artdığını vurğuladı.



Qəbula görə Çin nümayəndə heyəti adından dövlətimizin başçısına minnətdarlığını bildirən Sinxua xəbər agentliyinin baş redaktoru Hi Pinq bunu Prezident İlham Əliyevin Azərbaycan-Çin münasibətlərinin inkişafına verdiyi çox böyük önəmin göstəricisi kimi dəyərləndirdi. Hi Pinq Azərbaycanda gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu dedi. Sinxua xəbər agentliyinin baş redaktoru, öz növbəsində, bildirdi ki, 2015-ci ildə Prezident İlham Əliyevin Çinə səfəri zamanı Çin Xalq Respublikasının sədri Si Cinpinlə görüşü və orada imzalanan əməkdaşlıq sazişləri əlaqələrimizin inkişafına çox böyük təkan verib. O qeyd etdi ki, iki ölkənin dövlət rəhbərlərinin fəaliyyəti nəticəsində son illər Azərbaycan-Çin münasibətlərinin inkişafı uğurla davam edir. Ölkəmizdə keçirdiyi görüşlərdən danışan Hi Pinq Sinxua ilə Azərbaycan Dövlət İnformasiya Agentliyi arasında əməkdaşlıq haqqında imzalanan sənədlərin əhəmiyyətini qeyd edərək bu əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı.

Qonaq Azərbaycanda çalışan Çin şirkətlərinin fəaliyyəti ilə yaxından tanış olduqlarını da məmnunluqla qeyd etdi. Sinxua xəbər agentliyinin baş redaktoru Çinin “Bir kəmər-bir yol” təşəbbüsü çərçivəsində ölkələrimiz arasında münasibətlərin daha sürətlə inkişaf etdiyini bildirdi.

# Türkiyə KİV-ləri Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilən təntənəli paradı geniş işıqlandırıb



DHA DEMİRÖREN HABER AJANSI Yurt İstanbul Politika Spor Ekonomi Kültür&Sanat

BIST 94759 DOLAR 6.1624 EURO 7.1758 ALTIN 236.55 24°

Dünya

Cumhurbaşkanı Erdoğan, Azerbaycan'da

Ali Kan / Bakü (DHA) 15.09.2018 13:23 - Son Güncelleme: 15.09.2018 13:59

PAYLAŞ

*Cumhurbaşkanı Recep Tayyip Erdoğan, Kafkas İslam Ordusu'nun teşkilinin ve Bakü'nün kurtuluşunun 100. yıldönümü vesilesiyle düzenlenecek törenlere katılmak üzere özel uçak TC-CAN ile Azerbaycan'nin başkenti Bakü'ye gitti.*



HABER TURK SON DAKİKA GÜNDEM EKONOMİ SPOR MAGAZİN DÜNYA KADIN

SON DAKİKA HABERLERİ > Adıyaman'da mermer ocağında patlama: 5 yaralı • Rafsancani'nin kızı konu

Haberler > DÜNYA > Cumhurbaşkanı Erdoğan Azerbaycan'da konuşuyor

Cumhurbaşkanı Erdoğan'dan Azerbaycan'da Ermenistan mesajı!

15.09.2018 - 14:58 | Güncelleme: 15.09.2018 - 15:38 HABERTURK.COM

Cumhurbaşkanı Recep Tayyip Erdoğan, Kafkas İslam Ordusu'nun teşkilinin ve Bakü'nün kurtuluşunun 100. yıldönümü vesilesiyle düzenlenecek törenlere katılmak üzere özel uçak TC-CAN ile Azerbaycan'nin başkenti Bakü'ye gitti. Erdoğan, Bakü'nün Kurtuluşu'nun 100. yıl töreninde açıklamalarda bulunarak, Ermenistan mesajı verdi

DÜNYA

Aliyev-Erdoğan basına kapalı iki görüşme gerçekleştirdi. Erdoğan, Bakü'nün Kurtuluşu'nun 100. yıl töreninde önemli açıklamalarda bulundu.




***Sentyabrın 15-də Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilən təntənəli parad Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb. AZƏRTAC xəbər verir ki, Anadolu, İHA və DHA xəbər agentlikləri, TRT HABER, HABER TÜRK, TRT AVAZ və başqa televiziya kanalları, "Yeni çağ", "Akşam", "Posta", "Hüriyyət", "Milliyyət", "Sabah", "Vətən" və digər çoxtirajlı qəzetlər Türkiyə dövləti başçısının Azərbaycana səfərinə, Bakıda keçirilən parada və bu təntənəli mərasimdə Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakına geniş yer ayırıblar.***

Anadolu agentliyi mövzu ilə bağlı 40 foto və 3 videomaterial yayıb. TRT HABER kanalı paradın açılış mərasimini birbaşa translyasiya edib. Bundan başqa, TRT-nin baş direktoru İbrahim Erenin layihə rəhbərliyi ilə bu kanal Bakının işğaldan azad olunmasının 100-cü ildönümünə həsr edilən bayram proqramı hazırlayıb.

Mövzunu manşet materialı kimi təqdim edən "Vətən", "Milliyyət", "Sabah" və digər qəzetlər "İşğal bitmədən sərhədlər açılmaz" başlığı ilə təqdim etdikləri yazılarda dövlət başçılarının çıxışlarındakı mühüm məqamları alt başlıqlarla türkdilli oxucuların diqqətinə çatdırıblar.

Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışında Dağlıq Qarabağ problemi ilə bağlı səsləndirdiyi fikirləri təqdim edən "Yeni çağ" qəzeti həmin yazı ilə yanaşı, təcavüzkar Ermənistanın işğalçı ordusunun cəbhə bölgəsində mülki azərbaycanlı əhalini davamlı şəkildə atəşə tutmasına dair məlumat yayıb.

Yayılan materiallarda bildirilir ki, Azərbaycanın və Türkiyənin dostluq və qardaşlıq münasibətləri hazırkı dövrdə tarixin bütün dövrlərində olduğundan daha möhkəmdir. Bu, sıx, təmənnasız və tarixi əhəmiyyət daşıyan əlaqələrin qorunmasında və inkişafında Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səmimi dostluq və qardaşlıq münasibətləri böyük gücə malikdir. Türkiyə KİV-lərinin Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışındakı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə bağlı məqamlara geniş yer ayırması bütövlükdə Türkiyə xalqının Azərbaycana qardaşlıq münasibətinin təzahürüdür.

# İspaniya KİV-ləri: Prezident Ərdoğan Azərbaycanın ərazi bütövlüyünün bərpasına Türkiyənin dəstəyini bir daha vurğuladı

***İspaniyanın nüfuzlu "El Confidencial" və "El Diario" qəzetlərinin elektron versiyasında "EFE" xəbər agentliyinə istinadən "Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyənin Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə sadiq qaldığını bir daha vurğuladı" sərlövhəli məqalə yerləşdirilib. Məqalədə bildirilir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə Türkiyənin sadiq qaldığını bir daha bəyan edib və vurğulayıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi həll edilməyənədək Türkiyə-Ermənistan sərhədləri açılmayacaq.***

Türkiyə Prezidenti çıxışında bildirib ki, qardaş Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayanların, bir milyondan çox qardaşımızın öz vətəninə qayıtmasına mane olanların bizdən sərhədlərimizi açmağımızı gözləmələri əbəsdir. Qeyd edilir ki, bunu Türkiyə Prezidenti Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda bəyan edib. O, bu paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə birlikdə iştirak edib. Bakı şəhərinin ən böyük meydanı olan Azadlıq meydanında çıxış edən R.T.Ərdoğan bildirib ki, Azərbaycanın sevinci Türkiyənin sevincidir, Azərbaycanın problemi Türkiyənin problemidir.

İspan KİV-ləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından da sitatlar gətiriblər. Prezident vurğulayıb ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, Azərbaycan Respublikası öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biri olub. Məqalədə Bakının 100 il əvvəl azad edilməsi tarixindən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən, onun ağır nəticələrindən bəhs olunur. Qeyd edilir ki, Ermənistan ordusu zor tətbiq etməklə Azərbaycanın Dağlıq Qarabağ regionu ilə yanaşı, "bufer zona" adı altında digər rayonlarını da işğal edib.(AZƏRTAC)



eldiario.es Síguenos: | Boletines INICIAR SESIÓN HAZTE SOCIO

MENÚ FOCOS El máster de Montón Diada Derechos y libertades Salud Más focos

Inicio / Política

Erdogan reafirma su compromiso con la integridad territorial de Azerbaiyán

EFE - Bakú

15/09/2018 - 16:50h

- PUBLICIDAD -

Erdogan reafirma su compromiso con la integridad territorial de Azerbaiyán

El presidente de Turquía, Recep Tayyip Erdogan, reafirmó hoy el compromiso de su país con la integridad territorial de Azerbaiyán y aseguró que la frontera turco-armenia seguirá cerrada hasta la consecución de un arreglo al conflicto de Nagorno Karabaj.

"Esperar que abramos las fronteras a aquellos que son culpables de la ocupación del 20 por ciento del territorio de nuestros hermanos y que no permiten a más de un millón de nuestros hermanos volver a su hogares es una pérdida de tiempo", dijo en la capital azerbaiyana.

- PUBLICIDAD -

Apúntate a nuestros boletines

Adelanto para socios/as
The Guardian en español
Cultura
Desalambre
Economía

Tu email aquí

APÚNTAME

- PUBLICIDAD -

LO + Leído Comentado

El número dos del PP pidió que Sánchez explicase su tesis en el Congreso mientras ocultaba la suya propia — Gonzalo Cortizo

La justicia belga rechaza la extradición del rapero Valtònyc a España — eldiario.es

Los CDR impiden una manifestación en defensa del castellano en Barcelona — EFE - Barcelona

Pedro Sánchez dice que no es su

## Azərbaycan Prezidentinin Mətbuat katibi Ermənistan baş nazirinin cəfəng bəyanatını şərh edib



"Birinci dəfə deyil ki, Ermənistanın baş naziri Azərbaycanın daxili məsələləri ilə bağlı yersiz və cəfəng açıqlamalar verir". SİA-nın məlumatına görə, bu barədə Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi Azər Qasımov Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan Prezidenti İlham Əliyevin oğlu Heydər Əliyevin Silahlı Qüvvələrdə xidmət keçməsi ilə bağlı cəfəng bəyanatını şərh edərkən deyib.

A.Qasımov qeyd edib: "Birinci dəfə deyil ki, Ermənistanın baş naziri Azərbaycanın daxili məsələləri ilə bağlı yersiz və cəfəng açıqlamalar verir. Əvvəla, bu onu göstərir ki, Paşinyan siyasətdə təsadüfi bir fiqurdur, beynəlxalq münasibətlərdən xəbərsizdir. Paşinyan Azərbaycanın daxili işlərinə müntəzəm olaraq öz burnunu soxur. Bildirmək istəyirik ki, əgər Azərbaycan Ermənistanın daxili işlərinə müdaxilə etsə, Paşinyan hakimiyyətinin ömrü uzun olmayacaq. Sarkisyan diktatura rejiminin çökməsi buna sübutdur. Sadəcə olaraq, indiki şəraitdə Paşinyan rejiminin çökməsi Azərbaycana sərf eləmir. Nə qədər çox Ermənistanda Paşinyanın diktaturası davam edərsə, bir o qədər də bu ölkənin problemləri çox olacaq. Paşinyan xarici səfərlərində yaltaqlanmaqla, özünü alçaltmaqla, özünü qul kimi aparmaqla istədiyinə nail ola bilməz. Paşinyanın yeni diktatura rejimi Ermənistanı uçuruma aparır. Məhz buna görə də Azərbaycan tərəfi Paşinyan hakimiyyətinin çökməsi üçün hələlik heç bir addım atmır.

Paşinyanın növbəti sarsaq açıqlaması Prezident İlham Əliyevin oğlu Heydər Əliyevin Silahlı Qüvvələrdə xidməti ilə bağlıdır. Bildirmək istəyirik ki, Heydər Əliyev öz fiziki keyfiyyətlərinə və hazırlığına görə Azərbaycanın ən döyüş qabiliyyətli hərbi hissələrinin birinə hərbi xidmətə çağırılıb və sentyabrın 16-da keçirilən andiçmə mərasimi bu hərbi hissənin Azərbaycanın Silahlı Qüvvələrinin aparıcı hissələrindən biri olduğunu nümayiş etdirdi. Paşinyanın oğluna gəldikdə isə, bizdə olan məlumata görə, o, təmas xəttindən təxminən 50 km məsafədə Azərbaycanın işğal edilmiş Cəbrayıl rayonunda Ermənistanın hərbi hissələrinin birinə yazılıb və burada, əsasən, məişət məsələləri ilə məşğuldur. Bu hissəyə yazılmasına baxmayaraq, vaxtının çoxunu Xankəndidə keçirir. Ümumiyyətlə, Paşinyanın oğlunun hərbi xidməti ilə bağlı aparılan ucuz təbliğat növbəti populist və aşağı keyfiyyətli şoudan başqa bir şey deyil.

Paşinyanın necə şoumen olması bizə yaxşı bəllidir. Azərbaycan Respublikası Prezidentinin Mətbuat xidmətinin əməkdaşları Brüsseldə iyulda keçirilmiş NATO Zirvə toplantısının kuluarlarında Paşinyanın cılız və yaltaq hərəkətlərini öz gözləri ilə görmüşlər. NATO-ya üzv dövlətlərin rəhbərlərinə yaxınlaşıb onlarla şəkil çəkdirməyi Paşinyan Ermənistanda bu liderlərlə keçirilmiş görüşlər kimi təqdim etmişdir. Belə gülməli hərəkətlər Paşinyanın çox pis şoumen olduğunu göstərir. Sonda bir daha bildirmək istəyirik ki, əgər Paşinyan bundan sonra da öz kreslosunda oturmaq istəyirsə, ona Azərbaycanın daxili işlərinə burnunu soxmamasını məsləhət görürük".

## Eldar İbrahimov: "Prezidentin oğlunun hərbi xidmətə getməsi bir nümunədir"



Azərbaycan Prezidentinin oğlu Heydər Əliyevin əsgəri xidmətə getməsi bir örnəkdir, xalqımız üçün bir nümunədir. Buna görə də ölkə başçısının övladının bu cür nümunəvi hərəkəti hamı tərəfindən alqışlanır və yüksək qiymətləndirilir. Prezidentin oğlunun hərbi xidmətə getməsi hamı, o cümlədən bütün məmur övladları üçün nümunəvi addımdır". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov bildirib.

E.İbrahimov qeyd edib ki, Prezident İlham Əliyevin övladının hamı kimi hərbi xidmətə getməsi əvvəlcədən gözlənilən addım idi: "Bütün Azərbaycan övladları kimi, Heydər Əliyev də Vətənə olan borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanıb. Misal var ki, igid oğul ataya, babaya bənzər. Heydər Əliyevin əsgər getməsi də bunun bariz nümunəsidir. Bu başqa cür də ola bilməzdi. Çünki Heydər Əliyev cənab İlham Əliyev kimi bir valideyndən tərbiyə alıb. O, ulu öndər Heydər Əliyevin nəvəsidir. Heydər Əliyevin Dövlət Təhlükəsizlik Xidmətinin hərbi hissəsində xidmət etməsi də təsadüfi deyil. Çünki o da babası ulu öndər Heydər Əliyev yolunun davamçısıdır. Yəni, Heydər Əliyev babasının getdiyi yolla gedir. Bu isə çox vacib amildir. İnanıram ki, Heydər Əliyev nümunəvi əsgər kimi hərbi xidməti başa vurub geri qayıdacaq".

YAP İdarə Heyətinin üzvü əlavə edib ki, Azərbaycanda hamı kimi, məmur övladları da hərbi xidmətə gedirlər: "Bəzi adamlar bu barədə ağızına gələni danışır. Ancaq bütün bunlar cəfəngiyyatdır. Azərbaycanda məmur övladları da hamı kimi əsgər gedirlər. Burada başqa cür ola da bilməz".

## Akif Əlizadə: "AMEA 30 magistrantı yataqxana ilə təmin etməyi planlaşdırır"



"Bilik günü" insan həyatında çox önəmli gündür". SİA-nın xəbərinə görə, bu fikirləri Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə Milli Ensiklopediya Mərkəzində keçirilən "Bilik günü" tədbirində çıxış edərkən deyib. Akademiyada yaradılan magistr təhsilinin əhəmiyyətindən danışan A.Əlizadə bildirib ki, AMEA-da həyata keçirilən islahatların mühüm istiqamətlərindən biri elm və təhsilin inteqrasiyasıdır: "Bu isə cəmiyyətdə ixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanmasına, ölkədə təhsilin və elmi tədqiqatların səviyyəsinin artırılmasına xidmət edir". A.Əlizadə qeyd edib ki, AMEA-da magistr təhsil pilləsinin təşkili magistrantlara elmi fəaliyyətdə geniş imkanlar yaradır: "Onlar AMEA-nın həqiqi və müxbir üzvləri, eləcə də digər nüfuzlu alimləri ilə birgə elmi tədqiqatlar aparır, eyni zamanda dünya elminə inteqrasiya imkanı qazanaraq elmi potensiallarını gücləndirirlər. AMEA-magistrarura pilləsində 200-dək tələbə təhsil alır. Bu akademiyanın və ölkəmizin gələcək elm ordusudur". Akademik deyib ki, AMEA bu gün dövlətin ən aparıcı elmi, dövlətin, Azərbaycanın elmi tərəqqisini müəyyən edən qurumdur: "Akademiyanın ölkənin bütün sahələrinin inkişafında rolu yüksəkdir. Dövlətimizdə elmin təhsilin inkişafı istiqamətində mühüm addımlar atılır. Bu gün elmlə təhsilin inteqrasiyası ölkə təhsilinin Avropaya yaxınlaşması deməkdir". A.Əlizadə əlavə edib ki, AMEA 30 magistrantı yataqxana ilə təmin etməyi planlaşdırır.

## Seymur Orucov: "Heç kimin daxili işlərimizə qarışmağa ixtiyarı yoxdur"



"İstər Paşinyan olsun, istərsə də Sarkisyan, onların heç biri leqal prezidentlər deyillər. Onlar qondarma dövlətin elə qondarma liderləridir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, hakim Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib. "Ümumiyyətlə Ümummilli Lider Heydər Əliyev siyasətində biz nümunə olaraq göstəririk ki, cənab Prezident İlham Əliyev şəxsən öz oğlunu hərbi xidmətə göndərib. O bu gün cənab Prezidentimizin övladıdır, sabah isə lazım olacaqsa hərbi formada gedib Qarabağ döyüşlərinə qatılaraq torpaqlarımızın azad olunmasında iştirak edəcək. Heç kimin Azərbaycanın daxili işlərinə qarışmağa ixtiyarı yoxdur. Ölkə başçısı cənab İlham Əliyev o qədər güclü, dünyada nüfuz qazanmış insandır ki, onun görmüş olduğu işlərə bir söz deyilə bilməz. Qoy onlar gedib öz boş-boş işləri ilə məşğul olsunlar. Bu gün Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin, eləcə də Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyevin də övladı hərbi xidmətə gedib. Bir sözlə bu gün Azərbaycanda hər kəs gedib öz dövlətinə hərbi xidmətini yerinə yetirir. Terrorçu Ermənistan dövlətinin siyasi rəhbərliyi bilsin ki, Azərbaycanın güclü ordusu lazım gələrsə onları gəlib yerlə-yeksan edəcək",-deyə, YAP GB-nın sədri fikrini tamamlayıb.

## Ermənistan Müdafiə Nazirliyi Nikol Paşinyanı ələ salır



Ermənistan tərəfi cəbhədəki vəziyyətlə bağlı həqiqəti əks etdirməyən və yalan bəyanatlar səsləndirməyə davam edir. Analitik Ehtiram Aşırlı AZƏRTAC-a bildirib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın öz "facebook" səhifəsindən etdiyi açıqlamasına görə, guya Azərbaycan Silahlı Qüvvələri Tavşanlı rayonunun Koti kəndini atəşə tutaraq 60 yaşlı yerli sakini yaralayıb. Lakin Nikol Paşinyanın səsləndirdiyi digər bəyanatlar kimi, bu bəyanat da həqiqətləri əks etdirmir. Bu zaman sual olunur: Niyə N.Paşinyan yalan bəyanatlar səsləndirməyə davam edir? Çünki N.Paşinyan bu cür bəyanatlarla çıxış etməklə xalqının diqqətini yayındırmağa, xüsusilə də bu yolla öz hakimiyyətini qoruyub saxlamağa çalışır. Bəs Ermənistan baş nazirini bunu etməyə vadar edən səbəb nədir? Buna səbəb Paşinyanın öz siyasi bacarıqsızlığını və həyata keçirdiyi uğursuz siyasəti ört-basdır etməyə çalışmasıdır. Bu da Nikol Paşinyanın siyasi səriştəsizliyindən xəbər verir.

"Digər tərəfdən, bir məqamı da diqqətinizə çatdırmaq istərdim ki, erməni KİV-lərində çıxan xəbərləri yaxından izləsəniz görərsiniz ki, N.Paşinyan hakimiyyətə gəldikdən sonra bu cür qeyri-dəqiq məlumatlar daha geniş yayılmağa başlayıb. Görünür, Ermənistan Müdafiə Nazirliyi təmas xəttində baş verən proseslərlə bağlı N.Paşinyana yalan məlumatlar verməklə onu ələ salırlar. Bir sözlə, Ermənistanın dövlət qurumları öz fəaliyyətləri barədə yalan məlumatlar verməklə N.Paşinyanı, o isə bu yalanlarla bütün xalqını aldadır. Bundan əlavə, bütün bu faktlar onu sübut edir ki, Ermənistan hökumətində özbaşınalıq hökm sürür" - deyə E.Aşırlı bildirib.

## Azərbaycanlılar Avropada yeni media orqanı təsis ediblər

***Avropada azərbaycanlılar yeni xəbər portalı yaradıblar. Diaspor Komitəsindən SİA-ya verilən məlumata görə, xəbər portalı Polşadakı "Varşava Azərbaycanlılar Birliyi", "Vrotslav Azərbaycan Cəmiyyəti" və Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsi ilə birgə yaradılıb.***



Sayt polyak və Azərbaycan dillərində yayımlanır və "AzPolNews" adlanır. (www.azpolnews.pl) Xəbər portalının gələcəkdə ingilis dilində də versiyasının istifadəyə verilməsi nəzərdə tutulub.

Xəbər portal təkcə Polşa və Azərbaycan arasında deyil, ümumiyyətlə, Avropa ilə ölkəmizin əlaqələrinin informasiya mənzərəsini yaratmaq məqsədilə təsis edilib. Bundan sonra Avropada Azərbaycan diasporunun gördüyü işlər, eləcə də Diasporla İş üzrə Dövlət Komitəsinin Avropadakı fəaliyyəti barədə xəbər və reportajları, müfəssəl məlumatı həmin portal vasitəsilə izləmək mümkün olacaq. Polşadakı yerli jurnalistlər yeni saytla ciddi əməkdaşlıq edirlər. Müxtəlif diaspor təşkilatlarında təmsil olunan azərbaycanlı gənclər, Azərbaycanın Polşadakı səfirliyi və Diasporla İş üzrə Dövlət Komitəsi bundan sonra da Avropada informasiya xidmətləri sahəsində yeni birgə layihələrə imza atmaq qərarındadırlar.

# "Parad iki qardaş ölkəni biri-birinə bağlayan tellərin möhkəmliyinə işıq saldı"



***"Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad bir daha Azərbaycan-Türkiyə dostluğunun, eyni zamanda, iki dost, qardaş ölkənin malik olduğu imkanların təqdimatında əhəmiyyətli rol oynadı. Qardaşlığın, sədaqətin rəmzinə çevrilən bu zəfər bayramı Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət", Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" tezislərinin əsl mahiyyətini açıqladı, iki dost, qardaş ölkəni biri-birinə bağlayan tellərin möhkəmliyinə işıq saldı".***

Bu fikirləri SİA-ya açıqlamasında "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib. Prezident İlham Əliyevin sentyabrın 15-də Bakının işğaldan azad olunmasının 100 illiyinə həsr edilən paraddakı nitqinə toxunan baş redaktor söyləyib ki, "Bu bayram günündə biz birlikdəyik. Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik" söyləyən dövlət başçısı İlham Əliyev qeyd etdi ki, bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir: "Dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın, bu qədər bir-birinə arxa-dayaq olsun. Birliyimiz bütün sahələrdə özünü büruzə verir".

V. Rəhimzadə söyləyib ki, Türkiyə ilə Azərbaycanın birgə səyləri nəticəsində gerçəkləşdirilən layihələr regionda sabitliyə, təhlükəsizliyə xidmət edir: "Ölkə Prezidenti İlham Əliyevin dünyaya açılan pəncərə kimi dəyərləndirdiyi Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ardıcılları davamlıdır və dünyanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunun artmasına böyük töhfələr verirlər. 2018-ci ilin mayında "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı, iyun ayında TANAP-ın istifadəyə verilməsi, 2020-ci ildə istifadəyə verilməsi nəzərdə tutulan TAP, həmçinin ötən ilin oktyabrında istifadəyə verilən, əhəmiyyətinə görə heç də enerji layihələrindən geri qalmayan Bakı-Tbilisi-Qars dəmir yolu regionun təhlükəsizliyinin, sabitliyinin əsas təminatçısı, geniş tranzit imkanlarına malik olan Türkiyə-Azərbaycan birliyinin fonunda reallığa çevrilən, həm region, həm də dünya dövlətlərinin iqtisadi inkişafına geniş yol açan layihələrin davamlılığından, eyni zamanda, bu birliyin əbədiliyindən xəbər verir. Ölkə Prezidenti bu əminliyi ifadə edir ki, birgə səylərimizlə Azərbaycan-Türkiyə müttəfiqliyi və qardaşlığı bundan sonra da möhkəmlənəcək və inkişaf edəcək".

Baş redaktor qeyd edib ki, parad 27 illik müstəqillik tarixini yaşayan Azərbaycanın iqtisadi imkanlarının genişlənməsi fonunda güclənən və qüdrətlənən Ordusunun təqdimatı oldu: "Yaxın günlərdə müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd edəcək Azərbaycanın iqtisadi möcüzələr ölkəsi kimi tanınması və nüfuz qazanması uğurlu və təkmil iqtisadi islahatların nəticəsidir. Bu gün Azərbaycanın iştirakı olmadan bölgədə hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi qeyri-mümkündür. Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolu möhkəmlənir. Bunun bariz nümunəsi Azərbaycanın 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsidir. Təbii ki, bu uğurlara yol açan Azərbaycanın iqtisadi qüdrətinin günbəgün artmasıdır. İqtisadi müstəqillik siyasi müstəqillik üçün əsasdır. Son 15 ildə iqtisadiyyatımız 3,2 dəfə artıb. Ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulub. Bu gün ölkəmizdə işsizlik 5 faiz səviyyəsindədir. Davamlı uğurlarımız regional və beynəlxalq əməkdaşlıqda yeni-yeni uğurlara yol açır. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, uğurlarımız Azərbaycanın gələcəyinin parlaq olacağı barədə aydın təsəvvür yaradır".

V. Rəhimzadə dövlətimizin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qarantı olan ordumuzun gücü və qüdrətinin artmasını şərtləndirən amillərdən bəhs edərək bu gün Azərbaycan Ordusunun beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu sırasında olduğunu diqqətə çatdırıb: "Hərbi potensialımız artır. Müharibə şəraitində olan ölkə üçün güclü və qüdrətli ordunun olması əsasdır. 2016-cı ilin aprel, cari ilin Naxçıvan qələbələri Azərbaycan Ordusunun hansı imkanlara malik olduğunu, torpaqlarımızı işğaldan azad etmək qüdrətini bir daha nümayiş etdirdi. Dövlətimizin başçısı cənab İlham Əliyev paradda bu əminliyi ifadə etdi ki, gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaq".

Uğurlarımızın davamlılığı üçün bütün imkanların mövcudluğunu qeyd edən baş redaktor əlavə edib ki, Azərbaycanın istər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrinin yüksək səviyyədə olması reallıqlarının olduğu kimi dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynayır: "Ən əsası dünyaya nümunə olan Azərbaycan-Türkiyə birliyi bütün sahələrdə olduğu kimi, xarici siyasətimizin tərkib hissəsi olan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də vahid mövqedən çıxış edərək, bütün münaqişəli məsələlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında çözülməsinin vacibliyini bəyan edir. Azərbaycan-Türkiyə birliyinə, həmrəyliyinə əsaslanaraq, bu fikri böyük fəxr hissi ilə qeyd edə bilərik ki, bu gün, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Dövlətimizin başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi, bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir". V.Rəhimzadə açıqlamasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışına xüsusi diqqət yönəldərək, Azərbaycan-Türkiyə qardaşlığının gələcəyi üçün möhkəm bazanın olduğunu qeyd edib: "Biz bu gün yalnız Qafqaz İslam Ordusunun və azərbaycanlı qardaşlarımızın dillərdə dastan olan mübarizəsi ilə Bakının işğaldan azad olunmasının 100-cü ildönümünü qeyd etmirik, eyni zamanda, əziz şəhidlərimizin bizə əmanəti olan "Bir millət, iki dövlət" deyə rəmzləşdirdiyimiz qan qardaşlığımızı da dərk edirik" söyləyən R.T.Ərdoğan bildirib ki, Azərbaycanın sevinci, bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik".

## "Ərdoğanın çıxışı kifayət qədər kəskin və ibrətamiz idi"



"Bakının işğaldan azad edilməsinin 100 illiyi ilə bağlı keçirilən paradda Azərbaycan və Türkiyə prezidentlərinin çıxışında çox qiymətli fikirləri var idi. Həmçinin də müasir dövrlə bağlı çox əhəmiyyətli fikirlər səsləndirildi. Bu fikirlərin böyük bir hissəsi təcavüzkar Ermənistana qarşı idi". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

Onun sözlərinə görə, Ərdoğan birmənalı şəkildə bildirdi ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilməyincə, Dağlıq Qarabağ problemi ədalətli həll edilməyincə Ermənistanla sərhədlər açılmayacaq: "Eyni zamanda Ermənistana mesaj göndərdi ki, əgər bölgədə qonşularına yaxşı münasibət istəyirsənsə, beynəlxalq hüquq normalarına uyğun olaraq davranılmalıdır. Türkiyə prezidentinin çıxışı kifayət qədər kəskin və ibrətamiz idi. Cənab Prezident İlham Əliyev paradda Qafqaz İslam Ordusunun erməni qaniçənləri, erməni cəlladları üzərindəki böyük qələbəsini bir daha xatırlatdı və onlara minnətdarlıq borcunu ifadə etdi. Bu günün mənzərəsinə toxunan Azərbaycan Prezidenti qeyd etdi ki, Ermənistan yenə aqressiv siyasət yürüdür və Ermənistanın siyasi rəhbərliyi məsuliyyətsiz bəyanatlar verir. Ölkə başçısı birmənalı olaraq bildirdi ki, Azərbaycanla yalnız beynəlxalq hüququn normaları çərçivəsində danışmaq mümkündür. Onu da deyim ki, Bakıda keçirilən parad çox möhtəşəm idi. Zənnimcə bu parad ermənilərin 11-14 sentyabrda Dağlıq Qarabağda keçirdikləri hərbi təlimə çox yaxşı bir cavab idi. Həmçinin bu parad Ermənistan siyasi rəhbərliyinə bir mesaj idi ki, işğal edilmiş torpaqlardan əsgərləri geri çəksin".

## "Ermənistan reallığı qiymətləndirib işğal faktına son qoymalıdır"



"Bakının işğaldan azad edilməsi münasibətilə təşkil olunan təntənəli mərasimdə Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev bir daha qeyd etdi ki, güclü ordu Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşaması, ərazi bütövlüyünün bərpası üçün əsas şərtdir. Azərbaycan ordusunun hər gün bir qədər daha çox güclənməsinin səbəbini də elə bu fikirdə səsləndirilən məzmunda axtarmaq lazımdır". Bu fikirləri SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib. Bu günə qədər Azərbaycan torpaqlarının 20 faizinin erməni ordu birləşmələrinin işğalı altında olduğuna təəssüfünü bildirən Milli Məclisin deputatı söyləyib ki, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün beynəlxalq təşkilatlar və o cümlədən problemi həll etmək üçün yaradılan ATƏT-in Minsk Qrupu tərəfindən real addımlar atılmır: "Azərbaycan öz ərazi bütövlüyünü mütləq bərpa edəcək və bunun üçün ən real vasitə elə Azərbaycan ordusudur. Əgər danışıqlar nəticə verməsə, Azərbaycan bütün mümkün vasitələrdən istifadə edəcək. Ona görə də ölkəmizdə ordu quruculuğu işlərinə həmişə çox böyük diqqət yetirilir və bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında son bir ildə bir qədər daha irəliləyərək 53-cü yerə yüksəlib. Bu, qürurverici hadisədir".

Azərbaycan Ordusunun gücünün statistik deyil, həm də real və praktik olduğunu dilə gətirən baş redaktor, ordumuzun döyüş qabiliyyətli və yüksək hərbi-psixoloji əhval-ruhiyyəyə malik olduğunu dilə gətirib: "Bu, çox vacib şərtdir. Son iki ildə erməni təxribatına qarşı həyata keçirilən Lələ təpə və Günnüt əməliyyatları bir daha göstərdi ki, milli ordumuz istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Bütün bunlar isə əlbəttə Prezident İlham Əliyevin ordu quruculuğu və milli təhlükəsizliyimizin təmin olunması siyasətinin tərkib hissəsidir. Azərbaycan ordusunun nəyə qadir olduğunu işğalçı Ermənistan da bilir. Çünki öz üzərində artıq bunu hiss edib. Ona görə də Ermənistan bu reallığı qiymətləndirib işğal faktına son qoymalıdır".

## Arzu Nağıyev: "Azərbaycan bu gün diqtə edən tərəfdir"



"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər zaman olduğu kimi ölkəmizdə keçirilən siyasi, iqtisadi, hətta deyərdim hərbi islahatları belə daim mötəbər tədbirlərdə qeyd edir. Təbii ki, bunu da deməyində əsası var. Çünki bu gün Azərbaycan mühüm bir dövlətə çevrilib". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Arzu Nağıyev deyib. Onun sözlərinə görə, Azərbaycan Avropanın və Qərbin enerji təhlükəsizliyinin, təhdidin qarşısını ala bilənə qədər islahatlar etmiş bir dövlətdir: "Eləcə də Azərbaycan bütün dünyada baş verən terror hadisələrinə qarşı anti-terror koalisiyasında (Əfqanıstanda, digər bölgələrdə və s.) öz dəsti-xətti olan dövlətdir. Siyasi məsələlərdə də məlum məsələdir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli prioritet istiqamətdir və bu istiqamətdə demək olar ki, bütün diplomatik səyləri Azərbaycan həyata keçirir. Ölkəmiz artıq bu gün diqtə edən tərəfdir.

Hərbi baxımından da Azərbaycanın potensialı Bakının işğaldan azad edilməsinin 100 illiyi ilə bağlı keçirilən paradda bir daha nümayiş olundu. Paradda göstərildi ki, Azərbaycan özünün müstəqilliyini qorumağa, eyni zamanda təhlükəsizliyin, təhdidin qarşısını almaqda mühüm addımlar ata biləcək bir dövlətdir. Həmçinin insanların rifahı baxımından da bütün bu keçirilən reformalar onun ətrafındadır. Bunu bütün dünya, eləcə də BMT-yə daxil olan bütün dövlətlər Azərbaycanın apardığı islahatlara həmişə müsbət yanaşıb və buna da diqqət yetirir. Yəni buna görə də cənab Prezident İlham Əliyev Bakıda keçirilən paradda məhz bu kontekstdən çıxış etdi və bunu dünyaya bəyan etdi. Ən mühüm mötəbər kürsülərdən də həmin dediklərini bir daha təkrarlayır".

***Ceyhun Rasimoğlu***

# Ərdoğanın Bakı səfəri erməniləri qorxudub

*Hərbi parad faktoru və Türkiyə-Azərbaycan münasibətləri fonundakı siyasi gedişlər düşmən tərəfi düşünməyə və nəticə çıxarmağa vadar edir*

***Sentyabrın 15-də Bakının bolşevik-daşnak işğalından azad olunmasına həsr olunmuş hərbi parad və bu paradda Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı, eləcə də, sərt bəyanatları erməni tərəfinin bu reallıqdan qorxduğunu açıq-aşkar büruzə verib. Məhz Ermənistan mediası bu ilə bağlı üzərində müxtəlif səpgidə yazı və məqalələrlə çıxış edir, əsasən, mövcud olmayan Ermənistan-Türkiyə münasibətləri üzərində fikirlər yürüdürlər. Misal üçün, "1in.am" informasiya portalının analitik bölməsində bu mövzuya həsr edilmiş yazıda qeyd olunur ki, mövcud zamanda erməni-türk dialoqu üçün heç bir şərait yoxdur. Belə ki, erməni analitiklərinə görə, Türkiyənin siyasi rəhbərliyi inteqrasiya resurslarına malik deyil və Qərblə kəskin konfrontasiyaya vəziyyətindədir.***





Analitik yazıda o da bildirilir ki, erməni-türk münasibətlərinin müsbət yöndə həll olunması üçün "tarixi mümkünlük" 2009-cü ildə yaranmışdı, hansı ki, həmin vaxt bu prioritet beynəlxalq siyasi oyunçuların əlində idi. "Bu gün vəziyyət köklü olaraq dəyişilib və Yerevan artıq çoxdandır ki, Ankaradan hər hansı siqnalı gözləmir" deyə qeyd edilən analitik şərhdə baş nazir Nikol Paşinyanın Ermənistanın bu məsələdə heç bir şərt irəli sürmədən mövqe nümayiş etdirdiyini də yazıb. Həmçinin, bildirilib ki, guya Paşinyanın həmin mövqeyi Türkiyənin müxalifətçi, eyni zamanda, siyasi-ictimai dairələrində "müsbət qarşılanıb".

Lakin buna baxmayaraq, sözügedən yazıda Yerevan tərəfi üçün də erməni-türk münasibətlərinin həll olunması məsələsinin öz aktuallığının itirildiyi yazılıb. "Əgər bir neçə il öncə, bu məsələlərə Ermənistanın Avropaya inteqrasiyası kontekstindən baxılırdısa, hazırda vəziyyət erməni-türk münasibətlərinin böhranı çərçivəsində kardinal şəkildə dəyişilib" deyə "1in.am"-ın analitik bölməsində qeyd olunur.

### Etiraf: "Türkiyə-Azərbaycan münasibətləri Qarabağ probleminin həll olunması kontekstində əhəmiyyətlidir"

Məhz bu istiqamətdəki fikirləri Türkiyə-Azərbaycan münasibətləri üzərinə gətirən müəllif qeyd edir: "Türkiyə-Azərbaycan münasibətləri, eyni zamanda, Qarabağ probleminin həll olunması kontekstində əhəmiyyətlidir. Qarabağ problemində Ankara, birmənalı olaraq, Azərbaycanın yanında olduğunu dəfələrlə bəyan edib".

"Lakin belə bir vəziyyət həllolunma prosesində hər hansı təsirə malik deyil" deyə iddia edilən yazıda digər siyasi tərəfi-Rusiyanı da buraya əlavə edir. Daha dəqiq desək, analitik yazıda Azərbaycanın Türkiyə və Rusiya ilə üçtərəfli görüşləri "separatçılıq" kimi qiymətləndirilir. Bu amil isə, Ermənistanın yeni hakimiyyətinin hazırda da anti-Rusiya mövqeyinə malik olduğunu göstərir.

### İddia: "2015-16-cı illərdə Moskva Türkiyə və Azərbaycanın məqsədlərinə dəstək göstərib"

Xüsusilə, 2016-cı ilin aprel müharibəsi önə çəkilir və Rusiyanın həmin müharibədə Azərbaycan üçün "yaşıl işıq" yandırdığı iddia edilir. Hər halda, sözügedən məqalə Nikol Paşinyanın tərəfindən çıxış edən, onun siyasətini dəstəkləyən informasiya portalında işıq üzü görüb. SİTAT: "Digər məsələ budur ki, Ankara və Bakı Qarabağ probleminin həll olunması istiqamətində formata yenidən baxılması və perspektivi üçün Rusiya, Türkiyə və Azərbaycan arasında üçtərəfli separat razılaşmalara gedir. 2015-16-cı illərdə Moskva aşkar şəkildə Türkiyə və Azərbaycanın məqsədlərinə dəstək göstərib ki, bu da 2016-cı ildə aprel müharibəsinə səbəb olub".

Digər maraqlı məqam sözügedən analitik yazıda erməni-rus münasibətlərinin soyuması ilə bağlı edilən dolayısı etirafdır. Belə ki, müəllif burada Türkiyə və Azərbaycan tərəflərinin sözügedən məsələdə Ermənistanla Rusiya arasındakı böhrana ümid etdiklərini yazır, eləcə də, Bakının əsas benefisear olduğunu iddia edir.

### Təskinlik: "Qərbin sanksiyaları Rusiya ilə Türkiyənin manevr etmək imkanlarını zəiflədib"

Başqa tərəfdən, müəllif Ermənistanın hazırkı gündə də Rusiyadan asılı olduğunu, bu asılılığın gələcək illərdə də davam edəcəyini aşağıdakı ifadələrlə etiraf edib: "Lakin biz hesab etmirik ki, yaranmış geosiyasi situasiyada 2016-cı ilin statusu bərpa olunsun. Birincisi, Moskvada belə olan halda, ciddi ehtiyatlılıq var ki, bu baş verərsə, Ermənistana təsir qüvvəsini itirəcək, bundan əlavə, Qərbin sanksiyaları Rusiya ilə Türkiyənin manevr etmək imkanlarını zəiflədib. Bundan başqa, onlar (Türkiyə və Rusiya-R.R.) Suriya məsələsində tam şəkildə konsensusa gələ bilməyiblər".

Beləliklə, özlərinə yuxarıda qeyd edilən müxtəlif və çoxsaylı təskinliklər verən ermənilər bu vasitə ilə, müəyyən mənada, ictimai rəydə, necə deyərlər, "rahatlıq" yaratmağa çalışırlar. Görünür, buna görə Ərdoğanın Bakıda verdiyi mükəmməl bəyanatını "təbliğat xarakterli" adlandıraraq, əslində, qorxduqlarını etiraf edirlər.

***Rövşən NURƏDDİNOĞLU***

## "Dini mərasimlər: Ənənəvilik və müasirlik"

***Dünən Pirallahı rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Pirallahı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib. SİA-nın verdiyi məlumata görə, seminar-müşavirədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov, millət vəkili Rauf Əliyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayonda fəaliyyət göstərən dini icmaların üzvləri, dini komissiyasının və rayon Ağsaqqallar Şurasının təmsilçiləri, tam orta məktəblərinin direktorları, ictimaiyyət nümayəndələri iştirak ediblər.***




Tədbiri giriş sözü ilə açan Pirallahı rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov rayonda mövcud dini durum haqqında məlumat verərək respublikamızda mövcud olan dövlət-din münasibətləri, dinlərarası dialoq, dinlərarası tolerantlıq sahəsində həyata keçirilən dövlət siyasətindən bəhs edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək Dövlət Komitəsinin apardığı maarifləndirmə işi, qabaqlayıcı tədbirlər, Qafqaz Müsəlmanları İdarəsi, yerli icra strukturları və digər qurumlarla birgə səmərəli fəaliyyət barədə danışıb. Qeyd edib ki, Azərbaycanda həmişə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olub. Azərbaycanda tarixən İslam dininin müxtəlif təriqətlərinin birgəyaşayışı mövcud olub, təriqət baxımından qarşıdurma müşahidə edilməyib. Bu gün də məscidlərdə müxtəlif təriqətlərin daşıyıcıları dini ayinlərini bir yerdə icra edirlər, bir-birinə hörmətlə yanaşırlar. Eyni zamanda, Məhərrəm ayı və Aşura tədbirləri haqqında danışan Mübariz Qurbanlı bildirdi ki, mərasimlər məscidlərdə və Qafqaz Müsəlmanları İdarəsinin fətvasına uyğun, qanun çərçivəsində, fətvada irəli sürülən tövsiyələrə riayət olunmaqla keçirilməlidir.

Milli Məclisin deputatı Rauf Əliyev çıxış edərək dinə dövlət qayğısından, dövlət-din münasibətlərindən danışıb. O bildirib ki, Azərbaycan dünyəvi dövlətdir və ölkəmizdə din dövlətdən ayrı olsa da dövlət daim dini sahəyə xüsusi diqqət və qayğı ilə yanaşır. Dövlət başçısı mütəmadi olaraq din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir, dini ibadət yerləri təmir-bərpa olunub insanların istifadəsinə verilir. Qeyd edib ki, bu gün dünyanın hər yerində Azərbaycanda dinlə dövlətin birgə fəaliyyəti nümunə kimi göstərilir.

Rauf Əliyev Məhərrəm ayı və Aşura tədbirləri haqqında da danışıb. Bildirib ki, mərasimlərdə heç bir halda xurafata yol verməmək olmaz. Pirallahı qəsəbə məscidinin axundu Elçin Baxşıyev, Pirallahı rayon Ağsaqqallar şurasının üzvü Səməd Əhmədov və digərləri çıxışlarında xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli mənəvi dəyərləri qoruyub saxlamağın əhəmiyyətindən danışıblar.

Çıxış edənlər ölkədə dini maarifləndirmə işinin gücləndirilməsinin zəruriliyini vurğulayaraq, belə tədbirlərin təkcə dövlət-din münasibətlərinin inkişafına, dindarların maarifləndirilməsinə deyil, həmçinin ölkə dindarlarının dövlətə etimadının daha da artmasına xidmət etdiyini vurğulayıblar.

Müzakirələr zamanı Məhərrəm ayında keçirilən dini mərasimlərin, o cümlədən "Aşura" mərasiminin icrası zamanı qanunvericiliyin tələblərinə və Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının fətvasında qeyd olunan tövsiyələrə əməl olunmasının vacibliyi vurğulanıb. Sonda mövzu ətrafında tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz



***Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə sentyabrın 17-də "Zəngi" Liseyində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşkilatçılığı ilə Bilik Gününə həsr edilmiş ənənəvi "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda mühazirə oxuyub.***

V.Rəhimzadə əvvəlcə şagirdləri yeni tədris ilinin başlanması münasibətilə təbrik edib, onlara təhsildə müvəffəqiyyətlər arzulayıb. Sonra V.Rəhimzadə "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda mühazirə oxuyub. O, müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasının mahiyyəti, milli-mənəvi dəyərlərimizin qorunması, multikultural ənənələr, ölkəmizdəki tolerantlıq mühiti barədə ətraflı məlumat verib: "Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra, bütün sahələrdə olduğu kimi, ölkədə gənclərin milli-mənəvi ruhda böyüməsinə, təhsilinə böyük önəm verib. Dövlət - din münasibətlərinin tənzimlənməsində, multikulturalizm və tolerantlıq dəyərlərinin bərqərar edilməsində çox böyük işlər görüb."



"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, Ulu Öndərin xalqımızın milli-mənəvi dəyərlərinin qorunması istiqamətində yaratdığı ənənə bu gün Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. V.Rəhimzadə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin 10 yanvar 2017-ci il tarixli Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsində islami dəyərlərə nə qədər önəm verildiyini diqqətə çatdırıb.

Vüqar Rəhimzadə ölkəmizdə dini və milli-mənəvi dəyərlərin qorunması istiqamətində görülən işlərdən danışıb. İslam dininin humanizmi və böyük mənəvi dəyərləri özündə birləşdirdiyini xüsusi vurğulayan natiq Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın multikulturalizmə, tolerantlığa və milli-mənəvi dəyərlərə verdiyi töhfələrdən danışıb. Mühazirəçi bildirib ki, ən başlıcası görülən bu işlər gənclərin elmə, təhsilə marağın artırılması ilə yanaşı, əsl vətəndaş kimi formalaşmasında da böyük rol oynayacaq. Azərbaycanın ictimai-siyasi, sosial və mədəni həyatında Heydər Əliyev ideyalarının gənclərin həyatında nə qədər mühüm rol oynadığı diqqətə çatdırılıb.

Sonra tədbir qarşılıqlı fikir mübadiləsi ilə davam etdirilib.

# YAP Binəqədi rayon təşkilatında yüksək bal toplayaraq ali məktəblərə qəbul olan binəqədili tələbələrlə görüş keçirilib

***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında bu il yüksək bal toplayaraq, ali məktəblərə qəbul olan binəqədili tələbələrin iştirakı ilə 2017-2018-ci tədris ilinin yekunlarına həsr olunmuş tədbir keçirilib. Tədbirdə Binəqədi rayonunda təhsil sahəsində çalışan YAP fəalları, yüksək bal toplayan tələbələr və onların valideynləri iştirak ediblər.***



Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov bildirib ki, hər il Binəqədi rayonunda, ənənəvi olaraq, yüksək bal toplayan tələbələrlə görüşlər keçirilir. Ölkəmizdə Ümummilli Lider Heydər Əliyevin uğurlu islahatları nəticəsində, təhsil sahəsində yüksək nailiyyətlərin əldə edildiyini və bu gün də bu islahatların uğurla davam etdirildiyini qeyd edib. Məhz ölkə başçısı İlham Əliyevin xüsusi tapşırığı və rəhbərliyi altında ölkəmizdə təhsil müəssisələrinin yenidən qurulduğunu, əsaslı təmir edildiyini və yeni məktəb binalarının və korpuslarının inşa olunduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Binəqədi rayon icra hakimiyyəti başçısının müavini Aygün Əliyeva ölkəmizdə və Binəqədi rayonunda təhsil sahəsinin inkişafına göstərilən diqqət və qayğıdan danışıb. Məhz bunun sayəsində şagirdlərin yüksək şəraitdə təhsil aldıqlarını, hər il yüksək ballarla ali məktəblərə qəbul olduqlarını bildirib. Bununla yanaşı, şagirdlərin inkişafında ailə-müəllim faktorunun əhəmiyyətli dərəcədə rol oynadığını da vurğulayıb.

Binəqədi rayon icra hakimiyyəti başçısının müavini Vüsar İsmayılov çıxışında son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımların atıldığını söyləyib. Təhsilin normativ-hüquqi bazasının təkmilləşdirilməsi, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlərin həyata keçirildiyini bildirib. Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin əhəmiyyətli dərəcədə genişləndiyini və bu islahatların bundan sonra da artacağına ümidvar olduğunu qeyd edib. "Muğanbank" ASC-nin İdarə Heyətinin sədr müavini Rüstəm Vəliyev çıxışında tələbə adını qazanmış məzunları təbrik edib. Qarşıdan gələn yeni tədris ilində bütün təhsil ictimaiyyətinə uğurlar arzu edib. Təhsilimizin inkişafı nəticəsində, gənclərimizin və yeniyetmələrimizin uğurlarının davamlı olaraq, artdığını diqqətə çatdırıb. Yüksək bal toplayan tələbələrlə görüşün təşkilinə görə, YAP Binəqədi rayon təşkilatına minnətdarlığını bildirib və bu cür görüşlərin onda xoş təəssüratlar yaratdığını qeyd edib.

Binəqədi rayonu 179 №-li tam orta məktəbin məzunu, 695 balla Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olunmuş Nilufər Abdullayeva çıxışında göstərilən diqqət və qayğıya görə Binəqədi rayon rəhbərliyinə və YAP Binəqədi rayon təşkilatının kollektivinə təşəkkürünü bildirib. Böyük əzmlə çalışmasının və yüksək əmək sərf etməsi sayəsində bu nailiyyətə imza atdığını vurğulayıb. Bundan sonra da təhsilində və fəaliyyətində daim vətəninin adını uca tutacağını qeyd edib.

Tədbirdə, həmçinin, Binəqədi rayonu 135 №-li tam tam orta məktəbi "Qızıl medal"la bitirən, 667 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına qəbul olunan tələbənin valideyni Könül Şahbazlı, 179 №-li tam orta məktəbin məzunu, 690 balla BDU-nun Hüquq fakültəsinə qəbul olunan Lamiyə Zülfüqarlı, Binəqədi ryaonu 284 №-li tam orta məktəbin direktoru Nizami Novruzov çıxış edərək, təhsil sahəsindəki uğurlardan danışıblar. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yüksək təşəbbüskarlığı nəticəsində, davamlı və məqsədyönlü təhsil islahatlarının həyata keçirildiyini söyləyiblər.

Görüşün sonunda 2017-2018-ci tədris ilinin yekunları üzrə yüksək nəticə əldə edən tam orta məktəblərin kollektivləri və 2017-2018-ci tədris ili üzrə keçirilən qəbul imtahanında ən yüksək nəticə göstərən və orta məktəbi "qızıl medal"la bitirən tələbələrin mükafatlandırılması mərasimi keçirilib.

***ZÜMRÜD***

# Əli Kərimli-İlqar Məmmədov qarşıdurması

## *AXCP sədrinin ancaq sosial şəbəkələrdə dili "açılır"*

Payızın gəlməsi müxalifət düşərgəsinə heç də uğur gətirmədi. Belə ki, "REAL" partiyasının sədri İlqar Məmmədovun həbsdən çıxması müxalifət düşərgəsinin bir nömrəli probleminə dönüb. Xüsusilə də, son günlər sosial şəbəkədə AXCP sədri Əli Kərimlinin İ.Məmmədova qarşı allergiyası daha çox artıb. Əslində, bu, gözlənilən hal idi. Onu da vurğulayaq ki, İ.Məmmədov faktoru digər müxalifət partiya rəhbərlərini xoflandırır və onlar daha ehtiyatlı davranmağa başlayıblar. Belə ki, Əli Kərimli, eləcə də, Müsavat başqanı Arif Hacılı və başqaları da eyni halı yaşamaqdadırlar. Xüsusilə, İ.Məmmədov həbsdə olarkən, AXCP sədri Ə.Kərimlinin sosial şəbəkə vasitəsi ilə sorğu təşkil etdirməsi, eyni zamanda, Müsavat başqanı Arif Hacılı və başqaları da bu addımı ataraq, uduzmalarını tənqid edən İ.Məmmədovun "müxalifəti dəyişdirəcəyəm" mesajı müxalifət düşərgə "lider"lərini allergiyaya mübtəla edib.

### <u>Natiq Cəfərli:</u> "AXCP-çilər, sosial şəbəkələrdəki mənasız və elmi olmayan sorğularda belə uduzmağı həzm edə bilmirsiniz"

Təbii ki, hadisələr əsnasında "REAL"ın səlahiyyətlisi Natiq Cəfərli AXCP üzvlərinə sərt cavab verərək, onlara sosial şəbəkələrdə səs verənləri satqın adlandırıb: "Sosial şəbəkələrdəki mənasız və elmi olmayan



sorğularda belə uduzmağı həzm edə bilməyənlərə isə, sözüm odur ki, bu yanaşmanız təhlükəli və yanlışdır. Əks-fikir səsləndirənlər sizin üçün həmən "satqın", sosial şəbəkələrdə sizə səs verməyənlər isə, həmən "trol" olur. Dəhşətli, məmləkət üçün faciəvi düşüncə tərzidir və sizləri daha çox marginalaşdırır, dar bir qrupa çevirir".

### Saxta və yararsız müxalifət indi də gündəmdə qalmaqdan ötrü bu cür oyunbazlıqlar göstərir

Suala qarşı tərəfin cavabı oxşar olub: "İlqar Məmmdovun virtual tərəfdarlarının sayı bu qədər çoxdursa, nə üçün real həyatda bu, özünü göstərmir? Fakt isə, budur ki, müxalifətin bütün cinahlarında vəziyyət onların istədikləri kimi getmir və zaman-zaman öz zəiflikləri, məhz bu cür vasitələrlə üzə çıxır, o cümlədən, belə dar-davaların, savaşlı qalmaqalların təməlindən Ə.Kərimli və onun "Milli Şura" adlı lüzumsuz qurumu çıxır. Necə deyərlər, saxta və yararsız müxalifət indi də gündəmdə qalmaqdan ötrü bu cür oyunbazlıqlar göstərir".

Bu gün həbsdən çıxan İ.Məmmədov öz gözündə tiri görməyərək, özgə gözündə qıl axtararaq, müxtəlif yalanlarla vaxtilə cinayət əməlinə yol verməsini ört-basdır etməyə, insanların şüurunda özünün "əzabkeş qəhrəman", "mübariz" və "mələk" obrazını yaratmağa cəhd edir. Lakin unudur ki, can atdığı müxalifət düşərgəsində onu ciddi siyasətçi kimi qəbul etmirlər. "REAL" isə AXCP-nı səmərəsiz müxalifətçilikdə, cəbhəçilər də realçıları ritorik, Azərbaycan reallığından uzaq və faydasız fəaliyyətdə günahkar bilirlər. Bu isə, Ə.Kərimli və İ.Məmmədovun bir-birinə qarşı patoloji qısqanclığı və nifrəti hər ötən gün artmaqdadır. Tərəflər arasındakı gərginlik fırtınasının necə olacağını zaman göstərəcək.

### Əli Kərimlinin İlqar Məmmədovu məğlub etmək planı

Sosial şəbəkələrdən də görünür ki, AXCP sədri Əli Kərimli düşərgədaxili olan-qalan rıçaqlarını saxlamaq üçün "REAL" sədrinə qarşı müdafiə deyil, hücum planı qurmaqdadır. Bu məqsədlə Əli Kərimlinin yaxın ətrafı ilə bir neçə dəfə müzakirələr aparması barədə də informasiyalar verilir. Cəbhəçilərə yaxın olan mənbədən aldığımız xəbərə görə, bu dəfə də sosial şəbəkələr üzərindən İlqar Məmmədova qarşı savaş aparacağını gizlətməyən Ə.Kərimli, eyni zamanda, Avropadakı "siyasi mühacirləri" də bu işə qoşmağı planlaşdırıb. Xüsusilə, milli xəyanətkarlar statusunu qazanmış Orduxan Teymurxanı, Tural Sadıqlını və Sevinc Osmanqızını öz tərəfinə cəlb etməkdən ötrü AXCP sədrinin onlara maliyyə ötürəcəyi ilə bağlı məlumatlar mövcuddur. Onların qarşısına qoyulan vəzifələrdən biri də İlqar Məmmədova qarşı əks-təbliğat aparmaq məsələsidir.

Göründüyü kimi, AXCP sədri mövcud planları vasitəsilə İlqar Məmmədovu dalana sıxışdırmağa çalışır. Eyni zamanda, Ə.Kərimli başqa müxalifət partiyalarını İ.Məmmədova qarşı olmağa çağırdı. Bu, nə çağırışdır? Yəni xaricdən gələn qrantları monopoliyaya çevirən Kərimli İlqar Məmmədovun onun bazarına girməsini qətiyyən istəmir və mümkün qədər onu "mübarizədən" kənarlaşdırmağa çalışacaq. Bax, budur müxalif cəbhədə didişmələrin gerçək səbəbi və "birliyi".

***Rəfiqə HÜSEYNOVA***

# Təbii hüquq konsepsiyası haqqında

***"Dövlət haqqında iki traktat" əsərində Filmerin patriarxal nəzəriyyəsinin tənqidi verilmiş və təbii hüquq konsepsiyası əsaslandırılmışdır. Onun nəzəriyyəsinə əsasən, vaxtilə insanların təbii hüquqları olmuşdur. Bu hüquqlar onlara imkan vermişdir ki, onlar xüsusi mülkiyyətə, azadlığa və bərabərliyə nail olsunlar. Con Lakka görə, bu hüquqlar insanın təbii hüquqlarıdır və heç kim onu onların əlindən ala bilməz. Xüsusi mülkiyyət hüququnun mənbəyini insanların "şəxsi əməkləri təşkil edir". İnsanlar öz aralarında birləşib, ictimai müqavilə bağlamış, öz hüquqlarının bir qismini dövlət adlanan bir instituta güzəştə getmişlər. Dövlət isə insanların təbii hüquqlarının qoruyucusu kimi yaranmışdır və ona görə də, onun vəzifəsi bütün vasitələrdən istifadə etməklə, bu hüquqların keşiyində dayanmaqdır.***

Bu nəzəriyyə, burjuaziyaya imkan verirdi ki, xüsusi mülkiyyəti daha da möhkəmləndirərək inkişaf etdirsin. Bu, mövcud ictimai quruluşun əsası idi. Bununla belə, xüsusi mülkiyyət dövlətin hər hansı bir təzyiqindən də azad olmalı idi. Bir sözlə, Con Lokk burjuaziyanın xüsusi mülkiyyət hüququnu əbədiləşdirməyə çalışırdı. Con Lokka görə, monarxlar heç bir qanunla məhdudlaşdırılmadığına görə, insanların təbii hüquqlarını istədikləri vaxt pozurlar. Ona görə də, ən yaxşı hökmdar konstitusiyalı monarxdır və onun üzərində parlament nəzarəti mövcuddur.

Con Lokkun siyasi nəzəriyyəsinin bir qolunu siyasi hakimiyyətin bölüşdürülməsi təşkil edir. Bu konsepsiya hələ 1640-1660-cı illər inqilabı zamanı levellerlər tərəfindən irəli sürülmüşdür. Bu konsepsiyaya görə, hakimiyyət qanunverici, icraedici və ittifaq olmaqla üç yerə bölünür.

Birinci yeri qanunverici hakimiyyət tutur və bu hakimiyyət ancaq parlamentə məxsus olmalıdır. Parlament də, ardıcıl olaraq, yığışıb qanunlar qəbul etməli, lakin onun icrasına qarışmamalıdır.

İcraedici hakimiyyət krala məxsus olmalıdır. Kral qanunların icrasına nəzarət edir, nazirləri, məhkəmələri və digər vəzifəli şəxsləri təyin edir. Onun hərəkətləri qanuna tabedir, lakin parlamentə münasibətdə müəyyən üstünlüklərə malikdir (Məsələn, veto hüququ, parlamenti buraxmaq və s.). Bununla belə, xalq və parlament onun fəaliyyəti üzərində nəzarət edir ki, o, insanların təbii hüquqlarını poza bilməsin. Kral, habelə, ittifaq hakimiyyəti, yəni federativ hakimiyyəti həyata keçirir, zəruri olduqda, başqa ölkələrə müharibə elan edir, sülh bağlayır və münasibətlər yaradır.

Con Lokka görə hökumət "ictimai müqaviləni" pozarsa xalqın onu devirib yenisi ilə əvəz etmək hüququ var. Xalq elə bir hakimiyyət yaradır ki, o, insanların "təbii hüquqlarını" bir daha pozmağa cəsarət etməsin. Belə ki, "ictimai müqavilə" nəzəriyyəsi Con Lokka, ona görə lazım olmuşdur ki, o, 1688-ci il hadisələrinə siyasi don geydirsin və bu inqilabın qanuniliyini əsaslandırsın.

Con Lokkun siyasi təlimi sonrakı ictimai-siyasi fikrə güclü təsir göstərdi. ABŞ Azadlıq Hərəkatı nümayəndələrindən Tomas Ceferson 1789-cu ildə Fransadakı "İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi" aktı və digər siyasi sənədlər Con Lokkun ideyalarından bəhrələnmişlər. Monteskye "Qanunların ruhu haqqında" əsərində hakimiyyətin bölünməsinin C.Lokk prinsiplərindən yaradıcı şəkildə istifadə də etmişdir.

Con Lokkun təbii hüquq nəzəriyyəsi insan-təbiət münasibətləri ilə qırılmaz surətdə əlaqədardır. T.İ.Oyzerman yazırdı ki, təbii hüquq nəzəriyyəsi ilə həm materialistlər, həm idealistlər, həm də empiriklər məşğul olmuşlar. Lakin dövlətin mahiyyətinə və mənşəyinə dair fikir ayrılığı onların hamısı üçün xasdır. Tomas Hobbs, Russo, Spinoza və C.Lokk problemə hərəsi öz mövqeyindən yanaşmışdırlar.

Con Lokkun dövlət və cəmiyyət haqqında olan ideyaları onun ümumfəlsəfi və qnoseoloji fikirlərindən irəli gəlirdi. İnsan biliklərini yaxşı və pis olmaqla iki yerə bölən C.Lokk ictimai həyatda da pisləri yaxşılardan ayırmağı məqbul sayırdı.

Con Lokk təbii hüquqlara təbiətin qanunları kimi baxaraq, onları, həm də zəkanın qanunları kimi də müəyyən edirdi. Onun bu ideyası sonradan onun tədqiqatçılarını vadar etmişdir ki, ona müxtəlif mövqelərdən qiymət versinlər.

C.Lokkun təbiətin və cəmiyyətin problemlərinə baxışının formalaşması tarixi təkamül mərhələlərini keçmişdir. Onun yaradıcılığının ilkin mərhələsində insanın mənşəyi, siyasi hakimiyyətin təbiəti və funksiyaları, əxlaq, din, kilsə və s. haqqında olan görüşləri sonrakı mərhələdən fərqli olaraq heç də konseptual şəkildə irəli sürülmürdü. Bunlar arasında əlaqə, təbiət proseslərinin cəmiyyətə tətbiqi isə sonrakı illərin məhsuludur. Daha doğrusu, Con Lokk cəmiyyətin də "təbiət qanunları" əsasında inkişaf etdiyini iddia edirdi.

Con Lokkun sosial-siyasi baxışlarının formalaşması mürəkkəb bir yol keçmişdir. Bu, onun "təbiət qanunları" haqqında baxışlarının formalaşması ilə əlaqədar olmuşdur. Özünün ilkin ideyalarında, o, Foma Akvinskinin terminologiyasından asılıdır. Burada, o, dörd cür qanunun, olduğunu göstərir.

## Əbədi, təbii, insani, ilahi

Əbədi qanunlar - ümumdünya qanunudur ki, ilahi mahiyyətə malikdir, təbiətdə və cəmiyyətdə eyni güclə fəaliyyət göstərir. O, bütün qanunların mənbəyini təşkil edir.

Təbii qanunlar - təbiət qanunları olmaqla, həm də insana xas olan fiziki, emosional və intellektual sahələri əhatə edir. Foma Akvinskiyə görə, naqis insan ağlı bu qanunları dərk etməyə qadir deyildir.

İnsani qanunlar - təbiət qanunlarının insan cəmiyyətinə və birgəyaşayış qaydalarına tətbiq olunmasıdır. Bu, habelə, təbiət qanunlarının pozulmasına qarşı yönəldilmiş sanksiyalar məcmusudur.

İlahi qanunlar - insan yaşayışının son məqsədini ifadə edir, ədalətin, xeyir və şərin meyarı rolunu oynayır. Belə ki, Foma Akvinskiyə görə, təbii qanunlar və insani qanunlar - əbədi və ilahi qanunlar tərəfindən müəyyən olunur. Con Lokk isə, əbədi və ilahi qanunları atıb, bir tək təbiət qanunlarını saxlayaraq, ona ilahi sanksiya verir. Con Lokkun baxışlarının inkişafı və təkamülü təbiət qanunlarının sekulyarizasiyasından ibarətdir.

"Təbiət qanunları haqqında təcrübələr" əsərində, o öz ideyalarının mənbəyini Aristoteldən və stoiklərdən gələn ideyalar olduğunu xatırladır. Aristotelin "Nikomax etikası" əsərində, əvvəlcə deyilir ki, hər bir şeyin öz funksiyası var. Sonra sual qoyulur ki, bəs bu insan nədən ibarətdir və dərhal da ona cavab verir ki, insanın spesifik funksiyası ruhun bədənlə vəhdətdə olan fəaliyyətidir və insan ruhu ona nə deyirsə, ona qulaq asmalı və əməl etməlidir.

"Nikomax etikası" əsərinin beşinci kitabında Aristotel yazır ki, əbədi və vətəndaş hüquqları eyni qüvvəyə malikdir.

Təbiət, cəmiyyət və dövlətdə fəaliyyət göstərən təbii qanunların mövcudluğu ideyasını hələ stoiklər irəli sürmüşdülər. Onlara görə, bütün insanlar təbii hüquqlar qarşısında bərabərdirlər. Stoisizmdə təbii hüquq bütün insanlara - azad adamlara və qullara, kişilərə və qadınlara şamil edilirdi, feodalizmdə isə, bu, başqa məna kəsb etdi. C.Lokk feodalizmin irəli sürdüyü bu prinsipə öldürücü zərbə vurdu, feodal sinfinin anadangəlmə müstəqil hüquqlarının olduğunu kəskin tənqid edərək, inkar etdi. Yuxarıda adıçəkilən əsərində anadangəlmə əxlaq prinsipləri, rədd edərək, yazırdı ki, təbii hüquq ağıl ilə dərk olunmalıdır.

"Dövlət haqqında iki traktat" əsərinin yazılması 80-ci illərə, yəni "İnsan zəkası haqqında təcrübə" əsərinin yazıldığı illərə təsadüf edir. Bu əsərdə o, Tomas Hobbsdan fərqli yol tutmuşdur. Burada Filmerin tənqidi ilə yanaşı, Ş.Qassendinin təsiri özünü göstərir. Con Lokk insanların hüquqlarını anlamaq üçün onların hüquq və azadlıqlarının səviyyəsini müəyyən etməyə çalışırdı. Tomas Hobbs azadlıq və bərabərliyə "Hamının hamıya qarşı müharibəsi şəraitində insanın istədiyi hər şeyi etməsi" kimi baxırdı. Halbuki C.Lokk bu məsələni təbiətin imkanları çərçivəsində nəzərdən keçirməyi üstün tutur və yazır ki, insanların tam azadlığı ağıla və təbiət qanunlarına əsaslanır. Belə ki, Con Lokkda azadlıq xaosa və özbaşınalığa əsaslanır, müəyyən qanunlar çərçivəsində həyata keçirilir.

C.Lokkun insanların təbii vəziyyətləri ilə siyasi vəziyyətləri arasındakı fərqlər Tomas Hobbsdakı qədər radikal deyildir. Con Lokk yazırdı ki, "təbii halda hər bir təbiət qanunlarından irəli gələn icra hakimiyyətinə malik olur".

İnsanların təbii halı ilə cəmiyyətin dövlət təşkilatı əsasındakı fərq elə də böyük deyildir: insanların təbii halındakı icra funksiyası, sadəcə olaraq, dövlətdə onların xüsusi bir funksiyasına çevrilir. Cəmiyyətdə xüsusi bir qanuni orqanın - dövlət rəhbərliyinin olması - təbiətin qanunu, əslində, insanların təbii halında da fəaliyyət göstərir.

Buna yaxın bir anlamı B.Spinoza da vermişdir. B.B.Sokolovun yazdığı kimi, Spinozadan fərqli olaraq, C.Lokkda bu proses daha yüngül keçir, yəni təbii haldan vətəndaş cəmiyyətinə, sadəcə, bir keçid baş verir. Spinozada isə, təbii halla vətəndaş cəmiyyəti arasında sədd vardır. C.Lokkda isə bu, yoxdur. C.Lokk təbii haldakını vətəndaş cəmiyyətinə keçirir, Spinoza isə vətəndaş cəmiyyətində təbii halı da qüvvədə saxlayır. Lakin hər iki halda onları birləşdirən bir cəhət vardır: insanın əbədi və dəyişməz təbiəti. Baxmayaraq ki, hər ikisində burjua cəmiyyətinin dəyişməz xarakteri mifikləşdirilir, amma burjua-feodal cəmiyyətindən fərqli yeni tipli bir cəmiyyət- şəxsiyyət vardır və o, cəmiyyətin tarixi inkişafında, tarixi tərəqqisində daha yüksək bir cəmiyyət tipidir.

İnsanların təbii halından vətəndaş cəmiyyətinə keçid razılıq əsasında insanlar əsasında bağlanmışdır, "İctimai müqavilə" əsasında həyata keçirilir və burada əksəriyyətin rəyi nəzərə alınır. "İctimai müqavilə"ni bağlayan hər bir kəs ictimai rifah naminə cəmiyyətin yaradıcı qanunlarını qəbul edir və belə ki, təbii haldan dövlətə keçid baş verir.

Vətəndaş cəmiyyətində insanların həyatı ağıl və insan təbiəti prinsiplərinə nisbətən daha çox ideallaşdırılır. Spinozaya görə, burada "insan insan üçün idealdır". (bax: T.Hobbsda "insan insan üçün canavardır") Burada hələ burjua demokratiyası tənqid hədəfinə çevrilmir, əksinə, burjua cəmiyyəti bütün vasitələrlə təriflənib mütləqləşdirilir. Con Lokk inanırdı ki, yeni yaranan cəmiyyət bəşər tarixində ən mütəşəkkil, ən humanist və ağıl əsasında qurulan bir cəmiyyət olacaqdır.

"Yeni cəmiyyətdə insanların bir qisminin xüsusi mülkiyyətə malik olmamasının səbəblərini Con Lokk onların ağıllarında və arzularında olan fərqlərdə axtarmışdır. Belə ki, Con Lokkun cəmiyyət təlimində ziddiyyətlər özünü göstərir. Bir tərəfdən, yeni cəmiyyət insan təbiətindən asılı olaraq izah edilir, digər tərəfdən, insanların sinfi bərabərsizliyinin insan təbiətindən irəli gəldiyi nəticəsinə gəlinir. Bəs mülkiyyət nədir? Con Lokk bu suala belə cavab verir ki, mülkiyyət əmək nəticəsində yaranan sərvətdir. Lakin Con Lokk burada da ağılauyğunluq prinsipinə sadiq qalaraq, mülkiyyətin həddən artıq olmasını ağlasığmaz hesab edir və onu, o halda məqbul sayır ki, mülkiyyət insana onun ehtiyaclarını ödəmək çərçivəsində lazımdır. Həddən artıq sərvət pislənilir, çünki o, istismar alətinə çevrilə bilər, adamların "ictimai müqavilə"dən kənara çıxmasına və dövlətin qoyduğu qanunlara tabe olmağa gətirib çıxara bilər. Con Lokkun bu ideyalarını B.Rassel sosialist, U.Leşen isə kollektivist meyillər kimi xarakterizə edir.

Lakin daha sonra Con Lokk göstərir ki, insanlar onların istifadə edə biləcəklərindən artıq torpaqlara malik ola bilər, başqalarına ziyan vermədən çoxlu qızıl-gümüşə də sahib ola bilərlər. Lakin Con Lokk qeyd edirdi ki, dövlət tərəfindən hamıya bərabər imkanlar yaradılmalıdır ki, hamı mülkiyyətə sahib ola bilsin. Dövlətin borcudur ki, insanların xüsusi mülkiyyətinin və xüsusi mülkiyyət hüquqlarının qarantı olsun.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

SƏS
Son səhifə 18 sentyabr

## Bitkilərin tərkibində əsəb sisteminin analoqu aşkar olunub



Bitkilər təhlükə haqqında məlumatı ötürməyə qadirdirlər. Onlar bunu heyvanların əsəb sistemini xatırladan xüsusi sistemvasitəsilə edə bilirlər. Bu barədə Science jurnalında ABŞ və Yaponiya alimlərinin birgə tədqiqatlarının nəticələrinin nəşr olunduğu məlumatda bildirilir.

AZƏRTAC Ria novosti saytına istinadla xəbər verir ki, mütəxəssislər bir yarpağa zərər dəydikdə, ağacın budağının və digər yarpaqların bu barədə məlumat aldığı qənaətinə gəliblər. Onlara bunu öyrənməyə bitkilərin tərkibindəki kalsi və bu maddənin miqdarında baş verən dəyişikliklər kömək edib. Belə ki, laboratoriyada quraşdırılan xüsusi molekulyar sensor cihazı vasitəsilə bitkilərin tərkibindəki kalsinin ümumi miqdarına cavab verən maddə tapmaq mümkün olub. Tədqiqatlar zamanı mütəxəssislər şəraitdən asılı olaraq bitkilərin tərkibində kalsinin miqdarının artıb-azaldığını müşahidə ediblər. Alimlərin fikrincə bu dəyişikliklər təhlükə haqqında məlumatı bir neyrondan digərinə ötürən cərəyan səbəbindən baş verir.

## Həyat nəfəslə başlanır



Son vaxtlar gündəlik həyatımızda allergenlərlə təmas xeyli artıb. İstər qida məhsullarında, istərsə də havada, sintetik materiallardan hazırlanmış geyimlərdə və kosmetik vasitələrdə allergiyaya səbəb olan birləşmələrin çoxalması allergik xəstəliklərinin də geniş yayılmasına səbəb olur.

Bu barədə AZƏRTAC-a Uşaq Bərpa Mərkəzinin həkim-allerqoloqu Pərvanə Hüseynova məlumat verib.

Həkim deyib: "Bronxial astma yuxarı tənəffüs orqanlarının spazmı ilə özünü büruzə verir. Astmanın patogenezində əsas rol oynayan mexanizmlər-bronxospazm, selikli qişasının hipersekresiyası və ödəmidir. Boğulma tutmalarına səbəb olan faktorlar atopik və qeyri-atopik qrupa bölünür. Atopik, yəni allergik agentlərə-toz, qida, bitki tozcuqları və heyvan tükü, qeyri-atopik faktorlara virus, bakteriya və göbələk, mexaniki və kimyəvi qıcıqlandırıcılara tüstü, metal, pambıq tozları, qələvi və turşu buxarları, fiziki və iqlim dəyişikliyi, havanın rütubətliliyi, əsəb gərginliyi və stress kimi amillər aid edilir.

Ona görə son illərə qədər bronxial astma tənəffüs yollarının iltihabi-allergik xəstəliyi kimi araşdırılıb. Sonra xəstəliyin patogenezində aspirin mexanizmi adlı fenomen aşkar edilib. Asetilsalisil turşusu və ona oxşar preparatların qəbulu nəticəsində hüceyrə membranında araxidon turşusunun metabolizmi pozulur, bronxokonstruktiv təsirə malik bioloji aktiv maddələr-leykotrien və prostaqlandinlər ifraz olunur".

Astma zamanı xəstədə ekspirator təngnəfəslik, quru və yaş öskürək, ağciyərlərdə fitverici xışıltılar, məcburi oturaq vəziyyət baş verir, - deyən həkim bildirib: "Bəzən yanaşı olaraq asqırma, burun tutulması, burundan selik ifrazı, dəri səpgiləri kimi allergik əlamətlər də müşahidə oluna bilər. Xəstənin vəziyyəti qıcıqlandırıcı faktorlardan asılı olmayaraq ilboyu və ya mövsümə uyğun olaraq dəyişir. Bitki tozcuqlarına həssaslığın üstünlüyü ilə müşahidə olunan astmada əsasən yaz və payız aylarında kəskinləşmə baş verir. Rütubətin çoxluğu da tutmaları sürətləndirir. Xəstəliyin kəskinləşdiyi dövr təxminən sentyabr-oktyabr aylarından başlayaraq dekabra qədər davam edir.

Differensial diaqnostika üçün döş qəfəsi orqanlarının rentgen müayinəsi, həmçinin flüoroqrafiya, spirometriya və ya pikfləmetriya, qanda total və ya spesifik immunoqlobulin E, eozinofillərin təyini və bəlğəmin bakterioloji müayinəsi vacibdir. Xəstəliyə nəzarət etmək üçün bazis terapiyası da aparılmalıdır. Yanaşı olaraq həkim məsləhəti ilə fitoterapevtik, airoterapevtik üsullar, xüsusən də spazmolotik və bəlğəmgətirici təsirli çay və immunostimulyator kimi exinasiya və şirin biyan kökündən dəmlənilmiş çaylardan istifadə etmək olar".

## Ronaldo: "Artıq İtaliya futboluna uyğunlaşıram"



"Çox xoşbəxtəm. Rəqib yaxşı müdafiə olunsa da, üstün oyun sərgilədik. İlk qolu vurmağı çox istəyirdim". Bu sözləri "Yuventus"un futbolçusu Kriştiano Ronaldo İtaliya mətbuatına açıqlamasında deyib. Portuqaliyalı hücumçu ötən gün A Seriyasının 4-cü turunda "Sassulo" ilə oyunda dubl edərək Turin klubunda qol hesabıçı açıb. Bu barədə danışan 33 yaşlı futbolçu əvvəlki 3 qarşılaşmada qol vura bilmədiyi üçün narahat olduğunu bildirib: "Təbii ki, əsas olan komandanın 3 xal qazanmasıdı. Hamı qol vura bilməməyimdən danışırdı. Bu da bir az məni narahat edirdi. Çox çalışırdım və qol vuracağımı bilirdim. Artıq İtaliya futboluna uyğunlaşıram".

## Sərbəst güləşçilərimiz Minskdə üçüncü olublar

Belarusun paytaxtı Minskdə üççat Olimpiya çempionu Aleksandr Medvedin şərəfinə keçirilən beynəlxalq turnirdə sərbəst güləş üzrə yığmamız komanda hesabında 3-cü yeri tutub.

AZƏRTAC xəbər verir ki, baş məşqçi Firdovsi Umudov, məşqçilər Zəlimxan Hüseynovla Arif Abdullayevin rəhbərliyi altında Şərif Şərifov (92 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) qızıl, Hacı Əliyev (65 kq), Ağahüseyn Mustafayev (70 kq) və Murad Süleymanov (86 kq) gümüş, Murtuzəli Müslimov (70 kq) isə bürünc medal qazanıblar. Millimiz bu nəticələrlə 126 xal toplayıb və 3-cü yeri tutub. Komandamız yalnız Rusiya (177) və Belarusdan (169) geri qalıb. Qadınlardardan ibarət millimiz isə komanda hesabında 4-cü pillədə qərarlaşıb. Baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında Anjela Doroqan (53 kq), Tatyana Omelçenko (59 kq) gümüş, Elmira Qəmbərova (62 kq), İrina Netreba (65 kq) və Səbirə Əliyeva (76 kq) isə bürünc medal əldə ediblər. Yekunda yığmamız 93 xal toplayıb. Komandamızı Çin (164), Rusiya (151) və Belarus (95) qabaqlayıb.

## Mourinyo Məsut Özili komandasına aparır?



London "Arsenal"ının yarımmüdafiəçisi Məsut Özil qışda komandanı tərk edə bilər. Britaniya mətbuatının yazdığına inansaq, Joze Mourinyo onu öz komandasına aparmaq istəyir. Mətbuat yazır ki, artıq onun xidmətində "Mançester Yunayted" maraqlıdır və bu ciddi xarakter almağa başlayıb. Hazırda seçim qarşısında qalan oyunçu ya özünü sübut edib London klubunda oynamağa layiq olduğunu göstərməli, ya da başqa komandaya keçməlidir.

## Qrizmann özünü Ronaldo və Messi ilə müqayisə edib



"Atletiko"nun hücumçusu Antuan Qrizmann öz oyunundan razıdır. "AS" nəşri yazır ki, fransız futbolçu özünü hazırda dünyanın ən yaxşıları olan Kriştiano Ronaldo və Lionel Messi ilə müqayisə edib. 27 yaşlı oyunçu onlardan geri qalmadığını söyləyib: "Düşünürəm ki, hazırda Messi və Ronaldo ilə eyni səviyyədəyəm. Dünyada daim yeni səviyyədə olan futbolçular üzə çıxır. Hesab edirəm ki, bundan da yaxşı oynaya bilərəm. Daha çox qol vurub, məhsuldar ötürmələr edə bilərəm". Qeyd edək ki, A.Qrizmann bu il üç titul qazanıb - dünya çempinatı, Avropa Liqası və UEFA Superkuboku.

## "Sportinq"-"Qarabağ" oyununun hakimləri bəlli olub



Azərbaycanın avrokuboklarda yeganə təmsilçisi Ağdamın "Qarabağ" klubunun UEFA Avropa Liqasının qrup mərhələsində Portuqaliyanın "Sportinq" klubu ilə keçirəcəyi ilk oyunun hakimləri müəyyənləşib. AZƏRTAC xəbər verir ki, matçı Fransadan olan hakimlər briqadası idarə edəcək. Görüşün baş hakimi Fransua Leteksiye olacaq. Ona Siril Münyö və Mehdi Rahmuni kömək edəcəklər. Dördüncü hakim funksiyasını Bertran Juanno yerinə yetirəcək. Əlavə köməkçi hakimlər Frank Şnayder və Kərim Abed olacaqlar. Matçın hakim-inspektoru Bosniya və herseqovinalı Elmir Pilav, UEFA nümayəndəsi isə çexiyalı Patrik Filipekdir. Qeyd edək ki, sentyabrın 20-də Lissabondakı "Joze Alvalade" stadionunda keçiriləcək "Sportinq"-"Qarabağ" matçı Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500